

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

"Heydər Əliyev-100: Müstəqil Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasında Ümummilli Liderin rolu"



3


SƏS

№ 196 (6879)

26 oktyabr 2023-cü il.
Qiyməti 60 qəpik


## Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin 4 ili tamam olur



2

İLHAM ƏLİYEV: "Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uzadılması ölkəmizə geniş beynəlxalq dəstəyin təzahürüdür"

# Fransanın sülh əleyhinə yürütdüyü MİLİTARİZASİYA SİYASƏTİ



6

## Mətbuat Şurası və MEDİA Agentliyi region mediasının inkişafı ilə bağlı müzakirələr aparıb



7

## Azərbaycanda elə bir yer var ki, ölünü belə dirildir


12

## Erməni vandalizminə məruz qalan tarixi abidələrimiz


13

## Trol Tofiq Yaqublu peşəsini dəyişməyə hazırlaşır


14

## Rusiyalı ekspert: "Fransanın Ermənistana silah verməsi böyük geosiyasi oyunun elementidir"


15

# Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin 4 ili tamam olur

## İLHAM ƏLİYEV: "Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin uzadılması ölkəmizə geniş beynəlxalq dəstəyin təzahürüdür"

2023-cü il oktyabrın 25-də Azərbaycan Respublikasının Qoşulmama Hərəkatına sədrliyinin 4 ili tamam olur. Ötən 4 il ərzində ölkəmizin BMT-dən sonra ikinci böyük siyasi təsisat olan Qoşulmama Hərəkatına sədrliyi kifayət qədər uğurlu və əksər üzv dövlətlər tərəfindən nümunəvi sədrlik olaraq təqdir edilməkdədir. Təsadüfi deyildir ki, Azərbaycanın sədrliyi dövründə əldə edilən uğurlar bütün üzv dövlətlər tərəfindən təqdir edilmiş və Azərbaycanın Hərəkata 3 il müddətinə nəzərdə tutulan sədrliyi yekdilliklə əlavə 1 il müddətinə artırılıb.

Bəli, Azərbaycanın BMT-dən sonra dünyada ikinci böyük beynəlxalq təşkilatına - Qoşulmama sədrlik etməsi ölkəmizin dünya birliyində qazandığı böyük nüfuzundan xəbər verir. Qeyd edək ki, Qoşulmama Hərəkatına sədrliyi və belə mötəbər tədbirlərə ev sahibliyi etmək ölkəmizin multilateralizmə və qlobal həmrəyliyə verdiyi önəmin göstəricisidir. Məhz Qoşulmama Hərəkatına 3 illik sədrliyi 2022-ci ildə bitməli olan Azərbaycanın Hərəkata sədrliyi bir il uzadıldı.






### AZƏRBAYCAN PREZİDENTİ QOŞULMAMA HƏRƏKATININ SƏDRİ OLARAQ AZƏRBAYCANIN MƏQSƏDİ ƏDALƏTİ VƏ BEYNƏLXALQ HÜQUQU MÜDAFİƏ ETMƏKDİR

Sülhün, təhlükəsizliyin, beynəlxalq hüququn və ədalətin gücləndirilməsinə töhfə vermək üçün Azərbaycan 2011-ci ildə Qoşulmama Hərəkatı ailəsinə qoşulmaq qərarına gəldi. Qısa müddət ərzində Azərbaycan Hərəkatın üzvləri arasında böyük etimad və hörmət qazandı, 2016-cı ildə Qoşulmama Hərəkatının liderlərinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatının sədri seçildi.

Qoşulmama Hərəkatına üzv dövlətlər tərəfindən Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin daim dəstəklənməsini yüksək qiymətləndirən Prezident deyib: "Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvləri olan Qoşulmama Hərəkatının yeddi ölkəsinin bizə verdiyi dəstək olduqca dəyərlidir. Onlar BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrinə istinadın edilmədiyi birtərəfli mətbuat açıqlamasının qəbul edilməsinə imkan vermədilər. Bununla da, həmin ölkələr Qoşulmama Hərəkatının sənədlərindən qaynaqlanan Hərəkatın prinsipial mövqeyinə möhkəm sadiqliyini nümayiş etdirdilər".

Qısa müddət ərzində Azərbaycan Hərəkatın üzvləri arasında böyük etimad və hörmət qazandı, 2016-cı ildə Qoşulmama Hərəkatının liderlərinin yekdil qərarı ilə Azərbaycan 2019-2022-ci illər üçün Qoşulmama Hərəkatının sədri seçildi. Hərəkata üzv olan dövlətlər yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il - 2023-cü ilin sonuna qədər uzadılması barədə qərar qəbul etdilər. Bu, bilavasitə Azərbaycanın Hərəkata uğurlu və səmərəli sədrliyinə verilən qiymətin təzahürüdür.

"Dünya 2020-ci ilin əvvəlində COVID-19 pandemiyasına məruz qaldığı dövrdə Azərbaycan Hərəkatda sədrliyinə məsuliyyətlə yanaşmış və pandemiya nəticəsində yaranmış təhdidlərə vaxtında və adekvat cavab verilməsi üçün ciddi səylər göstərmişdir. Azərbaycan pandemiya ilə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün bir sıra təşəbbüslər irəli sürüb. Biz 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə Toplantısının keçirilməsi təşəbbüsünü irəli sürmüş və onu təşkil etmişik. Zirvə Toplantısının praktiki nəticəsi olaraq Qoşulmama Hərəkatına üzv dövlətlərin əsas humanitar və tibbi ehtiyaclarını əhatə edən məlumat bazası yaradılmışdır. Ümumdünya Səhiyyə Təşkilatı pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin mövcud ehtiyaclarının təmin edilməsi üçün həmin məlumat bazasından istinad mənbəyi kimi istifadə edir.

Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi etmişdir ki, onun yarısı Qoşulmama Hərəkatının üzvlərinə birbaşa yardım idi. Bununla yanaşı, koronavirusa qarşı mübarizələrini dəstəkləmək üçün Azərbaycan Qoşulmama Hərəkatının üzvləri daxil olmaqla, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı göstərmişdir. Azərbaycan təmənnasız olaraq dörd ölkəyə 150 min doza peyvənd ianə etmişdir.

Belə hərəkətlər Qoşulmama Hərəkatına üzv ölkələri öz əhalisini qorumaq imkanından məhrum edir. Peyvəndlərə çıxış sahəsində fərq çox böyükdür. Beynəlxalq hesabatlara əsasən, dünyada mövcud olan peyvənd dozalarının 75 faizi 10 zəngin ölkə tərəfindən alındığı halda, aşağı gəlirli ölkələrdə peyvəndlənmə 2 faizdən azdır. Azərbaycanın təşəbbüsü əsasında BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsinə dair qətnamə qəbul edilib. BMT Baş Assambleyasının cari sessiyası çərçivəsində də Azərbaycan eyni mövzuda qətnamə layihəsini irəli sürməyi planlaşdırır" - Bu sözləri Prezidentimiz öz çıxışında bildirmişdir. Azərbaycan Qoşulmama Hərəkatına üzv dövlətlərin parlamentariləri arasında əməkdaşlığın inkişafı ilə bağlı addımlar atır.

Ümumiyyətlə, Prezident İlham Əliyev çıxışlarında bildirib ki, Qoşulmama Hərəkatının sədri kimi Azərbaycan beynəlxalq münasibətlərdəki qlobal çağırışların həlli istiqamətində Hərəkatın rolunun daha da gücləndirilməsi, habelə ədalətin, beynəlxalq hüququn və Qoşulmama Hərəkatına üzv dövlətlərin legitim maraqlarının müdafiəsi istiqamətində səylərini əsirgəməyəcək. Bütün bunlarla yanaşı, Qoşulmama Hərəkatına üzvlük və sədrlik Azərbaycana Ermənistanın təcavüzünə qarşı mübarizədə güclü beynəlxalq dəstək qazandırıb. Məhz genişmiqyaslı uğurlu beynəlxalq fəaliyyəti sayəsində ölkəmizin keçmiş Qarabağ münaqişəsi ilə bağlı mövqeyi Hərəkatın sənədlərində dəstəklənib. Qoşulmama Hərəkatının Azərbaycana siyasi dəstəyinin bariz nümunəsi olaraq isə Vətən müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin hazırladıqları bəyanat layihəsini geri götürməyə məcbur olmasını göstərmək olar. Həmçinin 2020-ci və 2022-ci illərdə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı irəli sürülmüş qərəzli təşəbbüslərin qarşısı Hərəkata üzv dövlətlər tərəfindən alınıb. Beləliklə

### AZƏRBAYCAN HƏRƏKATA 4 İL SƏDRLİK ETMƏKLƏ BİR İLKƏ İMZA ATIB

Qeyd edək ki, ölkəmizin bu təşkilata verdiyi töhfə nəzərə alındı və üzv dövlətlərin təşəbbüsü ilə təşkilat tarixində ilk dəfə olaraq ötən il sədrlik müddəti uzadıldı. Azərbaycan hərəkata 4 il sədrlik etməklə bir ilkə imza atıb. Beləliklə də, Qoşulmama Hərəkatına üzv dövlətlərin yekdil qərarı ilə Azərbaycan Qoşulmama Hərəkatına sədrliyə başlandığı vaxtdan təşkilat siyasi arenada söz sahibi oldu. Həmçinin, Azərbaycanın Qoşulmama hərəkatına sədrliyi dövrlərində təşkilat bir çox vacib təşəbbüslərlə çıxış etdi. Belə ki, dördüncü ili müddətində Azərbaycanın sədrliyi dövründə atılan addımların xronologiyasına diqqət yetirdikdə Qoşulmama Hərəkatının nüfuzunun, dünya siyasətində yerinin və mövqeyinin güclənməsinin əsas hədəf olduğunu görməmək mümkün deyil. Məhz buna görə də Prezident İlham Əliyev BMT sistemində islahatların vacibliyi məsələsini qaldıraraq, dünya düzəninin yenidən qurulduğunu böyük inamla bəyan etdi. İndi bəşəriyyət "Soyuq müharibə"nin sona çatmasından bəri baş verən ən ciddi Şərq-Qərb qarşıdurmasının şahididir ki, onun fəsadları dünyanın qalan hissəsində də hiss olunur. Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisat kimi beynəlxalq arenada daha nəzərəçarpan və səmərəli rol oynamalı, yeni dünya düzəninin yenidən formalaşmasında fəal iştirak etməlidir.

Prezident İlham Əliyev çıxışlarında bir daha dünyaya sülh mesajları verdi. Azərbaycan uzun illər, hətta bu gün də ikili standartlar siyasətindən, haqsızlıqdan əziyyət çəkən ölkə kimi çalışır ki, dünyada ədalət bərpa edilsin. İmperialist və müstəmləkəçi siyasət yürüdən ölkələr bu siyasətdən əl çəkməlidir: "Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləmişdir. Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq".

Göründüyü kimi, Qoşulmama Hərəkatına üzv dövlətlərin yekdilliklə Azərbaycanın sədrlik müddətinin daha bir il uzadılması barədə qərarı Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin uğuru, dünyadakı nüfuzunun daha bir göstəricisi və Onun şəxsiyyətinə verilən yüksək dəyərin ifadəsidir. Bəli, bu gün Qalib Liderimiz, Azərbaycan Prezidenti İlham Əliyev cənablarına inanırlar və irəli sürdüyü hər bir təklifləri bilavasitə dəstəklənir. Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin daha bir il uzadılması təşəbbüsünün irəli sürülməsi amili də bu kimi mühüm, prinsipial gerçəklikləri növbəti dəfə təsdiqləmiş olur.

**RƏFİQƏ KAMALQIZI**

# “Heydər Əliyev-100: Müstəqil Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasında Ümummilli Liderin rolu”

## *Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib*

***Oktyabrın 25-də "Heydər Əliyev İli" çərçivəsində Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "Heydər Əliyev-100: Müstəqil Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasında Ümummilli Liderin rolu" mövzusunda onlayn formatda beynəlxalq konfrans keçirilib.***

Tədbirin moderatoru, YAP Gənclər Birliyinin üzvü Anastasiya Lavrina bu il anadan olmasının 100 illiyini qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün həyata keçirdiyi siyasətin əhəmiyyətini vurğulayıb. O qeyd edib ki, bu konfrans Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasət kursunun uğurlarının, əldə edilən nəticələrin təhlili, həmçinin Ümummilli Liderin siyasi irsinin təşviqi və öyrənilməsi baxımından önəmlidir.

Tədbirdə çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarını salamlayaraq, Azərbaycan xalqının Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin banisi, Yeni Azərbaycan Partiyasının qurucusu, dünya şöhrətli siyasətçi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə keçirilən videokonfransın işinə uğurlar arzulayıb və tədbirin Heydər Əliyev irsinin hərtərəfli öyrənilməsinə mühüm töhfə olacağına inamını ifadə edib. Tahir Budaqov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilmişdir. Bu münasibətlə istər respublikamızda, istərsə də bir çox xarici ölkələrdə silsilə tədbirlər keçirilir, Heydər Əliyevin müasir dövlətçilik tariximizdə müstəsna yerinə və roluna nəzər salınır, Onun zəngin siyasi irsinin müxtəlif aspektləri geniş ictimaiyyətin diqqətinə çatdırılır. Bu tarixi şəxsiyyətin adı ilə bağlı olan və hazırda Onun siyasi varisi cənab İlham Əliyevin Sədrliyi ilə uğurla inkişaf edərək Azərbaycana böyük nailiyyətlər qazandıran Yeni Azərbaycan Partiyası da Heydər Əliyev ideyalarının təşviqi və gənc nəslə aşılanması baxımından böyük əhəmiyyətə malik olan müxtəlif tədbirlər reallaşdırmaqdadır.







YAP Sədrinin müavini qeyd edib ki, "Heydər Əliyev-100: Müstəqil Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasında Ümummilli Liderin rolu" mövzusunda keçirilən bugünkü konfransın da, xüsusilə də dost və tərəfdaş ölkələrdən olan ictimai-siyasi və dövlət xadimlərinin, Ulu Öndərlə müxtəlif səviyyələrdə təmasda olmuş şəxslərin müdrik dövlət xadimi haqqında fikirlərinin Heydər Əliyev irsinin öyrənilməsi baxımından faydalı olacağına, dahi şəxsiyyətlə bağlı xatirələrinin maraq doğuracağına şübhə yoxdur: "Məlumdur ki, Heydər Əliyev bir-birindən iqtisadi və siyasi-ideoloji xüsusiyyətlərinə görə kəskin fərqlənən iki ayrı dövrdə Azərbaycana rəhbərlik etmişdir. Onun respublikamıza siyasi rəhbərliyinin birinci dönəmi SSRİ dövrünə təsadüf edir. 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilən Heydər Əliyevin rəhbərliyi ilə atılan addımlar - görülən işlər respublikamızın yüksəlişini təmin etməklə yanaşı, müttəfiq respublikalarla münasibətlərin inkişafına da xidmət göstərmişdir. Mən Prezident İlham Əliyevin bu məsələlər ilə əlaqədar fikirlərini diqqətinizə çatdırmaq istəyirəm: "Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 13 il ərzində Azərbaycan Sovet İttifaqı çərçivəsində ən inkişaf etmiş və qabaqcıl respublikaya çevrilmişdir. Əlbəttə, Azərbaycan müstəqil deyildi və Sovet İttifaqında müəyyən ideoloji çərçivələr də var idi. Ancaq buna baxmayaraq, həm respublikanın sosial-iqtisadi inkişafında, həm milli-mənəvi dəyərlərin təbliğində o illərdə Heydər Əliyev böyük işlər görmüşdür".

1982-ci ilin dekabrında SSRİ Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi də məqsədyönlü fəaliyyətini uğurla davam etdirmişdir. Bu, respublikanın 1969-1982-ci illər ərzində yaradılmış güclü sosial-iqtisadi baza əsasında inkişafını daha da sürətləndirmişdir. Bilirsiniz ki, Heydər Əliyev bu vəzifədə işləyərkən SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik etmişdir. Xüsusi qeyd etmək istəyirəm ki, bu dövrdə atılan addımlar təkcə Azərbaycan SSR-in deyil, Sovet ittifaqının tərkibində olan digər respublikaların da inkişafına töhfə olmuşdur. Eyni zamanda, Heydər Əliyevin istər Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi, istərsə də də SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi fəaliyyət göstərdiyi dövrlərdə respublikamızda digər xalqların nümayəndələri də qarşılıqlı anlaşma şəraitində yaşamış, onların bütün hüquqları qorunmuş, rifah və firavanlığı yüksək səviyyədə təmin edilmişdir".

Vurğulanıb ki, SSRİ-nin dağılması ərəfəsində ittifaq tərkibində olan 15 respublika öz müstəqilliklərini elan etməyə başladılar. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası tarixi isə 1991-ci ilin oktyabrın 18-ə təsadüf etdi. Lakin Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasəti, torpaqlarımızın ard-arda işğal edilməsi və digər bir sıra problemlər respublikamızın olduqca mürəkkəb şəraitlə üzləşməsinə, hətta müstəqilliyini itirmək təhlükəsi qarşısında qalmasına səbəb oldu. Belə bir ağır vəziyyətdə Heydər Əliyev xalqın israrlı tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıtmaqla xilaskarlıq missiyasını yerinə yetirdi. O, Azərbaycanı iqtisadi böhrandan, siyasi xaosdan qurtardı, Ermənistanın işğalçılıq müharibəsinin qarşısını aldı, səmərəli xarici siyasət həyata keçirməklə ölkəmizin beynəlxalq münasibətlər sisteminə uğurlu inteqrasiyasının əsasını qoydu. 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması, ikitərəfli münasibətlərin inkişafı, beynəlxalq təşkilatlarda yüksək fəallığın təmin olunması və digər amillər bu baxımdan xüsusi qeyd edilməlidir. Ümummilli Liderin milli maraqlara əsaslanan siyasi kursu Azərbaycanın dostlarının və müttəfiqlərinin sayının artması, beynəlxalq mövqeyinin möhkəmlənməsi, Qarabağ məsələsində ölkəmizin haqlı və birmənalı yanaşmasının qlobal miqyasda dəstəklənməsi kimi hədəflərə yönəlmişdi. Ulu Öndər bu məqsədlərə nail oldu - Azərbaycan regionun aparıcı dövlətinə çevrildi, etibarlı tərəfdaş kimi beynəlxalq münasibətlər sistemində layiqli yer tutdu. Bütövlükdə isə, Ümummilli Liderin müstəqillik dövründə ölkəmizə rəhbərlik etdiyi, sabitlik və inkişaf dönəmi kimi yadda qalan 1993-2003-cü illərdə iqtisadi potensialın artırılması, praqmatik enerji strategiyasının həyata keçirilməsi, xarici dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlığın qurulması və münasibətlərin bərabərhüquqlu tərəfdaşlıq prinsipi əsasında inkişaf etdirilməsi kimi amillər Azərbaycanın regionda rolunun artmasını, qlobal siyasi arenada imkanlarının genişlənməsini təmin etdi.

YAP Mərkəzi Aparatının rəhbəri diqqətə çatdırıb ki, 2003-cü ildən etibarən isə Heydər Əliyev siyasətinin davamçısı - Ümummilli Liderin siyasi varisi cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət Azərbaycana yeni uğurlar qazandırmışdır: "Son 20 il ərzində Azərbaycanın təşəbbüsləri və liderliyi ilə böyük enerji və nəqliyyat layihələri reallaşdırılmış, regional miqyasda yeni əməkdaşlıq platformaları yaradılmış, ölkəmiz mötəbər beynəlxalq təşkilatlara sədrlik və qlobal xarakterli mühüm tədbirlərə ev sahibliyi etmişdir. 2011-ci ildə 155 dövlətin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi isə ölkəmizə, şəxsən cənab İlham Əliyevə olan böyük inam və etimadın ifadəsi, dövlətimizin yüksək nüfuzunun və geostrateji əhəmiyyətinin göstəricisidir. Azərbaycan 2019-cu ildən BMT-dən sonra dünyanın ikinci böyük beynəlxalq təsisatı olan və sıralarında 120 dövləti birləşdirən Qoşulmama Hərəkatına sədrlik edir. Şərqlə Qərb arasında mənəvi-siyasi və mədəni-intellektual körpü rolunu oynayan Azərbaycan bəşəriyyət üçün böyük önəm və aktuallıq kəsb edən bir çox mühüm təşəbbüslərlə çıxış etmiş, humanizm dəyərlərinə sadiqliyini, milli maraqlara və beynəlxalq hüquq normalarına hörmətini hər zaman nümayiş etdirmişdir".

***Ardı Səh. 4***

Əvvəli Səh. 3

Qeyd edilib ki, Azərbaycana misilsiz nailiyyətlər qazandıran Heydər Əliyev siyasətinin zirvə nöqtəsi 30 il ərzində Ermənistanın işğalı altında qalmış torpaqların azad edilməsi, ərazi bütövlüyünün bərpası və suverenliyin bərqərar olunmasıdır: "İstər Ulu Öndər Heydər Əliyevin, istərsə də Prezident İlham Əliyevin siyasi kursunda Qarabağ məsələsinin həlli başlıca strateji prioritet - bir nömrəli məsələ kimi xüsusi yer tutmuşdur. Təbii ki, Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında milli maraqlara əsaslanan səmərəli xarici siyasətin müstəsna rolu olmuşdur. Beynəlxalq miqyasda etibarlı dostluq və tərəfdaşlıq əlaqələrinin formalaşdırılması, Azərbaycanın haqlı və ədalətli mövqeyinin dəstəkləndiyi sənədlərin qəbuluna nail olunması, Azərbaycan həqiqətlərinin təbliğinə yönəlik məqsədyönlü kampaniyaların və genişmiqyaslı layihələrin həyata keçirilməsi ölkəmizin mövqeyinin möhkəmlənməsinə şərait yaratmış və təsir imkanlarımız artmışdır. 2020-ci ilin sentyabrın 27-də işğalçı Ermənistanın təcavüzkar silahlı qüvvələrinin növbəti təxribatına Azərbaycan Ordusunun əks-hücum əməliyyatı ilə layiqli cavab verməsi ilə başlanan 44 günlük Vətən müharibəsində ölkəmizin tarixi Qələbəsi isə torpaqlarımızın azad olunması uğrunda çoxillik fəaliyyətin qanunauyğun nəticəsi olmuşdur. Prezident İlham Əliyevin prinsipial mövqeyi nəticəsində bu ilin sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsində 24 saatlıq lokal antiterror əməliyyatı isə suverenliyin, ölkəmizin konstitusiya quruluşunun tam bərpasını təmin etmiş, respublika ərazisində separatizmə birdəfəlik son qoyulmuşdur".




"Əlbəttə, bu Qələbə böyük tarixi və siyasi məzmuna malikdir. Çünki birincisi, Azərbaycan işğal faktına, separatizmə öz milli gücü ilə, hərbi-siyasi resursları vasitəsilə son qoymuş, BMT-nin 1993-cü ildə qəbul edilmiş, amma kağız üzərində qalmış qətnamələrinin icrasını təmin etmişdir. Yəni biz həm tarixi ədalətin, həm də beynəlxalq hüququn bərpasına müvəffəq olmuşuq. İkincisi, bu tarixi Zəfər xalqımızın milli qürurunun və milli ləyaqətinin bərpası, "münaqişənin hərbi həlli yoxdur" deyən, işğalçı ilə işğala məruz qalanı fərqləndirməyən qərəzli dairələrin ikili standartlara əsaslanan siyasətinin iflasa uğradılmasıdır. Nəhayət, Azərbaycan regionda yeni geostrateji reallıqlar yaratmışdır ki, bu da nəinki Cənubi Qafqazda, hətta bütövlükdə postsovet məkanında və daha geniş miqyasda yeni təhlükəsizlik mühitinin və əməkdaşlıq imkanlarının formalaşması deməkdir. Çoxəsrlik dövlətçilik tarixinə malik olan Azərbaycan hər zaman rifah, firavanlıq, sülh, sabitlik və əməkdaşlıq tərəfdarı olmuşdur, bu gün də öz mövqeyinə və prinsiplərinə sadiqdir" ,- deyən Tahir Budaqov əlavə edib ki, bütün bu aşkar reallıqlar - qazanılan möhtəşəm nailiyyətlər Heydər Əliyev siyasətinin təntənəsidir. Azərbaycan bundan sonra da Prezident, Müzəffər Ali Baş Komandan, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin rəhbərliyi altında Heydər Əliyev yolu ilə addımlayaraq möhtəşəm uğurlar və yeni qələbələr əldə etmək əzmindədir.

Çıxışının sonunda YAP Sədrinin müavini konfransın işinə uğurlar arzu edib, səmərəli fikir mübadiləsinin aparılacağına ümidvar olduğunu bildirib.

Sonra dünya şöhrətli yazıçı, Qazaxıstanın ictimai-siyasi xadimi Oljas Süleymenovun konfransa ünvanlanmış videomüraciəti nümayiş olunub. Azərbaycan xalqına və dövlətinə ürəkdən bağlı olduğunu diqqətə çatdıran Oljas Süleymenov Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb. Qazax yazıçısı Ümummilli Liderlə ilk dəfə 1975-ci ildə Azərbaycanda keçirilən sovet ədəbiyyatı günlərində görüşdüyünü deyib: "Keçmiş sovetlər ittifaqının hər yerindən Azərbaycana qonaqlar gəlmişdi. Biz qruplara bölünərək bu qonaqpərvər respublikanın müxtəlif bölgələrinə səyahət etdik. Qonaqlar Bakını tərk etməmişdən əvvəl Heydər Əliyev bizimlə görüşdü. Sənətə, ədəbiyyata böyük önəm və dəyər verən Ümummilli Lider tədbirdə iştirak edən yazıçı və şairlərin çoxunu ilk dəfə görürdü. Onun nitqindən aydın olurdu ki, çıxışa çox gözəl hazırlaşıb. Dünya ədəbiyyatına Oljas Süleymenov kimi yazıçı bəxş etdiyinə görə qazax xalqına təşəkkür edən Heydər Əliyev mənə üzünü tutaraq dedi: "Sən təkcə Qazaxıstan xalqına deyil, bütün Türk dünyasına lazımsan". Heydər Əliyevin bu sözləri həyatımın və yaradıcılığımın leytmotivi oldu və mənim Türk dünyası ədəbiyyatı sahəsində yaradıcılığımda açar rolunu oynadı. 60 il

# "Heydər Əliyev-100: Müstəqil Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasında Ümummilli Liderin rolu"

*Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib*




üzərində çalışdığım türkşünaslıq və şumer ədəbiyyatı ilə bağlı tədqiqat işlərimi, nəhayət ki, bu il yekunlaşdıra bildim. Həmin tədqiqat əsərini Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə hədiyyə edirəm. Düşünürəm ki, əsər Azərbaycanda da geniş populyarlıq qazanacaq və türkşünaslığın inkişafına töhfə verəcək".

Şumerlərin tarixindən danışan Oljas Süleymenov bildirib ki, qədim mənbələri və yazıları araşdırarkən müəyyən həqiqətləri üzə çıxarıb. Bir daha əmin olub ki, türk xalqı qədim mədəniyyətin bir hissəsi deyil, məhz bu tarixi yaradan xalqdır. "Təxminən 1 aydan sonra bu tədqiqat əsərinin yazılması ilə xatirələr kitabım çapdan çıxacaq. Kitabımda Heydər Əliyevlə bağlı xatirələrim də geniş yer alıb. Azərbaycan və Heydər Əliyev mənim həyat və yaradıcılığımda mühüm yer tutur. Heydər Əliyev cəmi 80 il yaşasa da, özündən sonra yüz illərlə unudulmayacaq zəngin irs və dəyərlər qoyub getdi", - deyə dünya şöhrətli yazıçı vurğulayıb.

Azərbaycan Respublikasının bugünkü inkişafının hamının gözləri qarşısında baş verdiyini, Azərbaycanın uğurlarına çox sevindiklərini diqqətə çatdıran Oljas Süleymenov deyib: "Qarabağ münaqişəsi artıq öz həllini tapıb, ölkənin ərazi bütövlüyü tam təmin olunub. İnanıram ki, Heydər Əliyevin layiqli varisi Prezident İlham Əliyev Azərbaycanı daha böyük zirvələrə qaldıracaq və qarşıya qoyulmuş hədəflərə nail olacaq. Mən Azərbaycan xalqına və dövlətinə uğurlar arzulayıram".

Rusiyanın TASS xəbər agentliyinin baş direktorunun birinci müavini, Əməkdar jurnalist Mixail Qusman çıxışında doğulduğu gündən dünyasını dəyişdiyi günə qədər inanılmaz dərəcədə zəngin, möhtəşəm həyat yolu keçmiş dahi lider Heydər Əliyevin istər Sovet dövründə, istərsə də müstəqillik illərində Azərbaycanın inkişafına verdiyi töhfələrdən söhbət açıb. Ulu Öndəri müasir Azərbaycan dövlətinin memarı adlandıran M.Qusman qeyd edib ki, Heydər Əliyevin xidmətləri misilsizdir. Hələ Sovet dönəmində, məhz Onun rəhbərliyi dövründə Azərbaycan elə bir inkişaf etmiş ölkəyə çevrilmişdi ki, bütün digər respublikalar ona oxşamağa çalışırdılar. Çünki Azərbaycan praktiki olaraq digər respublikalardan irəlidə idi: "Təsadüfi deyil ki, mən ovaxtkı sovet lideri Leonid İliç Brejnevin doğma respublikamız haqqında dediyi sözləri tez-tez xatırlayıram. Brejnev Heydər Əliyevin başçılıq etdiyi respublika barədə "Azərbaycan iri addımlarla irəliləyir" demişdi. Təbii ki, o vaxt bu ifadə bütün Sovet İttifaqına yayılmışdı, Azərbaycanın bütün şüarlarında bu sözlər yazılırdı. Lakin fikir verin, Leonid İliç bu frazanı düşünərək demişdi. Bu, sadəcə, gözəl fraza deyildi, bütün digər respublikalarla müqayisədə Azərbaycanın möhtəşəmliyinə hörmət əlaməti idi. Ona görə ki, Brejnev baş katib olmazdan əvvəl Ukraynada, Qazaxıstanda, Moldovada işləmişdi və bütün bu respublikalar çalışırdılar ki, Sovet İttifaqının lideri Azərbaycan haqqında dediklərini onlar haqqında da deyə bilsin".

Mixail Qusman bildirib ki, o vaxt Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan bütün istiqamətlərdə inanılmaz dərəcədə inkişafa nail olmuşdu. Bu, həm iqtisadiyyata, həm mədəniyyətə, həm ictimai-siyasi həyata, həm elmə, bir sözlə, ölkə həyatının hər sahəsinə aid idi.

Ümummilli Liderin həyatının ən önəmli mərhələlərindən birinin Moskvada işlədiyi dövrlə bağlı olduğunu bildirən M.Qusman qeyd edib ki, Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən ümumittifaq miqyaslı böyük yükü öz çiyinləri üzərinə götürmüşdü. O, nəhəng siyasətçi və dövlət xadimi idi.

TASS xəbər agentliyinin baş direktorunun birinci müavini öz çıxışında müəllifi olduğu, Ümummilli Liderin 100 illik yubileyinə həsr edilmiş "Liderin ürəyi" sənədli filmindən də söz açıb, filmdə Heydər Əliyevlə bağlı xatirələrdən, Onun zəngin həyat yolundan, çoxşaxəli siyasi fəaliyyətindən, Azərbaycan naminə göstərdiyi misilsiz xidmətlərdən bəhs edildiyini diqqətə çatdırıb.

Ulu Öndərin müstəqil Azərbaycanın təməlini qoymağa nail olduğunu bildirən M.Qusman qeyd edib ki, bu gün Ümummilli Liderin siyasətini Azərbaycan Prezidenti İlham Əliyev uğurla davam etdirir: "Odur ki, biz Azərbaycanın dahi lideri Heydər Əliyevi Azərbaycanın xilaskarı, Prezident İlham Əliyevi isə müasir Azərbaycanın qurucusu adlandırmaqda haqlıyıq".

Çıxış edən YAP Veteranlar Şurasının üzvü Əli Həsənov bildirib ki, Heydər Əliyev həm SSRİ dövründə, həm də müstəqillik illərində



respublikamıza rəhbərlik etdiyi zaman müstəsna fəaliyyət göstərib, misilsiz işlər görüb: "Heydər Əliyevdə fitri istedad, bacarıq və cəsarət, Vətəninə, xalqına, torpağına bağlılıq var idi. Yəni idarəçilik üçün nə tələb olunurdusa, hamısı var idi. Ulu Öndər 1969-cu ilin iyul ayında Azərbaycanın rəhbəri seçildikdən sonra qısa müddət ərzində respublikamızı ittifaq miqyasında ön sıralara çıxardı. Həmin dövrdə Azərbaycan hər bir sahədə böyük nailiyyətlərə imza atdı. Heydər Əliyevin 1969-1982-ci illərdəki idarəçilik sistemi o vaxtkı SSRİ-nin bütün rəhbərlərinə nümunə idi. Daha sonra Ulu Öndər Heydər Əliyev SSRİ-də yüksək vəzifəyə irəli çəkildi və Onun nəzarətində olan hər bir sahədə tərəqqi baş verdi. Moskvada işlədiyi



zaman Heydər Əliyev ittifaq respublikalarının inkişafında da böyük xidmətlər göstərdi".

Onun sözlərinə görə, həmin dövrdə Qərb və Avropa Heydər Əliyevi yaxşı tanıyırdı və xarici mətbuat Onu "Kremldə dəmir iradəli müsəlman" adlandırırdı.

YAP Veteranlar Şurasının üzvü qeyd edib ki, 1990-cı illərin əvvəlində respublikada iqtisadi, siyasi xaosun hökm sürdüyü, ölkənin dünya xəritəsindən silinmə təhlükəsinin olduğu dövrdə xalqımızı yalnız Heydər Əliyev kimi şəxsiyyət xilas edə bilərdi: "Təcrübə, bilik, bacarıq, cəsarət, xalqın Ona olan inamı, ölkədəki iqtisadi, siyasi, sosial durumdan xəbərdar olması və xalqının psixologiyasına bələdçiliyi imkan verdi ki, ölkəni xilas etsin. Xalqın tələbi ilə hakimiyyətə yenidən qayıtdıqdan sonra ictimai-siyasi sabitliyi bərpa etdi, milli inkişaf strategiyasını müəyyənləşdirdi, bazar iqtisadiyyatına keçidə başladı, idarəetmənin qanunvericilik bazasını yaratdı, inzibati strukturu yenidən qurdu, vətəndaş həmrəyliyinə nail oldu, çoxpartiyalı siyasi sistemə keçidi təmin etdi.

Eyni zamanda, Heydər Əliyev müstəqil Azərbaycanı bütün dünyada tanıtdı, beynəlxalq birliyə inteqrasiya olunmasında vacib addımlar atdı. "Əsrin müqaviləsi" kimi mühüm sənədin imzalanmasında da Heydər Əliyevin beynəlxalq müstəvidəki nüfuzu müstəsna rol oynadı".

Əli Həsənov deyib ki, Ulu Öndər Heydər Əliyevin güclü iqtisadiyyat və güclü ordu quruculuğu istiqamətində həyata keçirdiyi siyasət Azərbaycanın Ermənistanın işğalı altında olan torpaqlarının azad olunmasına hesablanmışdı və belə də oldu: "Bu gün Prezident İlham Əliyev Ulu Öndərin siyasətini ölkənin, xalqın mənafeyi naminə uğurla davam etdirir. Azərbaycan dövlətinin öz torpaqlarını işğaldan azad etməsi, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması Heydər Əliyev siyasətinin və Prezident İlham Əliyevin iradəsinin təntənəsidir".

Siyasi və dövlət xadimi, VII çağırış Belarus Milli Assambleyasının Nümayəndələr Palatasının deputatı Tengiz Dumbadze çıxışında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin tarixi xidmətlərindən bəhs edib. Heydər Əliyevi şəxsən tanıdığı üçün fəxr etdiyini diqqətə çatdıran Tengiz Dumbadze Ulu Öndərin dahi şəxsiyyət kimi tarixdə iz qoyduğunu bildirib, Cənubi Qafqaz xalqlarının inkişafı istiqamətində xidmətlərini qeyd edib. Sovet ittifaqının dağılmasından sonra respublikaların ağır vəziyyətə düşməsindən danışan T.Dumbadze Azərbaycanın öz ayaqları üstündə durması və dövlət müstəqilliyini qoruması istiqamətində Heydər Əliyevin fəaliyyətinin yüksək qiymətə layiq olduğunu söyləyib.

Ardı Səh. 5



# "Heydər Əliyev-100: Müstəqil Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasında Ümummilli Liderin rolu"

*Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə beynəlxalq konfrans keçirilib*

Əvvəli Səh. 4

Ümummilli Liderin ölkəsinin hüdudlarından kənarda tanındığını, yüksək nüfuza malik olduğunu xatırladan belaruslu deputat Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə siyasi komandasına Vətənini sevən, ona dərindən bağlı olan etibarlı adamları cəlb etdiyini bildirib. Heydər Əliyevin qanlı 20 Yanvar hadisələrində xalqının yanında olduğunu bildirən natiq deyib: "Heç bir dövlət adamı həyatını risk altına salaraq Onun atdığı addımı ata bilməzdi. Heydər Əliyev hələ o zaman dünyaya böyük şəxsiyyət olduğunu sübut etdi. O sübut etdi ki, öz xalqının oğlu, Azərbaycanın Lideridir. Heydər Əliyev mübarizliyi ilə yeni Azərbaycanın simvolu olduğunu ortaya qoydu. Ancaq Heydər Əliyev kimi şəxsiyyət Azərbaycanı uçurumdan xilas edə bilərdi. İllər, əsrlər keçəcək, amma bir fakt həmişə qalacaq ki, müstəqil Azərbaycan Ulu Öndər Heydər Əliyevin şah əsərdir".

Heydər Əliyevin "Əsrin müqaviləsi" ilə Azərbaycanı inkişaf etməkdə olan ölkələr sırasına çıxardığını qeyd edən T.Dumbadze bildirib ki, Ulu Öndərin siyasi varisi, Prezident İlham Əliyev Onun siyasətini uğurla davam etdirir. Qarabağda dəfələrlə olduğunu diqqətə çatdıran belaruslu deputat deyib: "Azərbaycan Prezidenti İlham Əliyev 44 günlük Vətən müharibəsi ilə illərin, əsrlərin problemini həll etməyi bacarıb, ölkəsinin ərazi bütövlüyünün bərpa edilməsinə nail olub. Prezident İlham Əliyev Zəfərlə adını tarixə qızıl hərflərlə yazdırıb. Heydər Əliyevin ruhu şaddır. Şaddır ki, Onun irsi layiqincə davam etdirilir".

T.Dumbadze qeyd edib ki, Azərbaycan Prezidenti yaxın silahdaşı, ölkənin birinci xanımı Mehriban xanım Əliyeva ilə birlikdə xalq və dövlət üçün misilsiz işlər görür.

Çıxış edən Tacikistan Respublikasının keçmiş xarici işlər naziri və BMT-dəki daimi nümayəndəsi, Şanxay Əməkdaşlıq Təşkilatının sabiq baş katibi, Tayxe İnstitutunun professoru Rəşid Alimov Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş konfransa dəvət olunduğu üçün təşəkkürünü bildirib. O, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevi dünya şöhrətli, nəhəng siyasi və dövlət xadimi kimi xarakterizə edib. Ulu Öndər Heydər Əliyevlə görüşlərini xatırlayan Rəşid Alimov Ümummilli Liderin öz xalqına böyük sevgisinin şahidi olduğunu bildirib: "Mənim üçün ən önəmli olan budur ki, Heydər Əliyevlə şəxsi görüşümdə Onun necə uzaqgörən siyasətçi olduğuna heyran olmuşam. Heydər Əliyev yorulmaz fəaliyyəti, müdrikliyi və mənəvi gücü ilə əsl nümunədir. Məhz bu səbəblərdən Azərbaycan xalqı 30 il əvvəl Ona müstəqil dövləti idarə etmək üçün yüksək etimad göstərmişdi. Biz hamımız xatırlayırıq ki, o zaman Azərbaycanın vəziyyəti fövqəladə dərəcədə ağır idi. Məhz belə bir dövrdə Azərbaycan xalqı Heydər Əliyevə çağırış etdi. Xüsusilə, Azərbaycanın müstəqilliyinin ilk illərində Onun respublikanı ağır vəziyyətdən, xalqı təlatümlü günlərdən necə xilas etdiyini hər birimiz yaxşı xatırlayırıq. Heydər Əliyev bütün daxili problemləri həll edərək Azərbaycanı inkişaf yoluna çıxardı. Həmin vaxtlar O deyirdi ki, hər gün, hər saat, hər dəqiqə xalqımla bir yerdə olacağam. Heydər Əliyev Prezident kimi 10 il ərzində, həqiqətən də, xalqının inam və etimadını yüksək səviyyədə doğrultdu".

Heydər Əliyevin natiqlik qabiliyyətini xüsusi vurğulayan R.Alimov qeyd edib ki, O, bütün çıxışlarında auditoriyanı cəlb etməyi bacarırdı: "Şərq müdriklərindən biri deyir ki, "söz hətta kosmosu hərəkətə gətirə bilər". Heydər Əliyev də belə bir gözəl natiq idi. Onun elə bir bacarığı var idi ki, dediyi sözlər insanlarda böyük inam yaradırdı. Bununla yanaşı, O deyirdi ki, söz dəqiq, fəaliyyət isə qətiyyətli olmalıdır. Mən Moskvada çalışarkən Heydər Əliyevin çıxışlarını dinləmişdim. Onun dərinmənalı çıxışlarında yüksək emosiyanı hiss edirdim. Mən vurğulamaq istəyirəm ki, Moskvada işləyərkən Heydər Əliyevin mənim də həyatımda xüsusi rolu olub, karyeramın irəli getməsində Onun dəstəyini hiss etmişəm. Heydər Əliyev həmişə insanlara qayğı ilə yanaşırdı, bacarıqlı gənclərə dəstək verirdi. Mən də onlardan biri idim".

Rəşid Alimov söyləyib ki, Heydər Əliyevin titanik səyləri nəticəsində Azərbaycanda milli birlik və həmrəylik təmin olundu, keçid dövrünün çətinliklərinin öhdəsindən gəlindi: "Heydər Əliyev müstəqil Azərbaycana rəhbərlik edən zaman tənəzzülə uğramış iqtisadiyyatın inkişafı istiqamətində mühüm ad-




dımlar atdı. Yadımdadır ki, 1997-2000-ci illərdə Azərbaycanda ÜDM 10 faiz artdı, inflyasiya isə 2 faizə düşmüşdü. Həmin illərdə məhz Heydər Əliyevin düşünülmüş siyasəti və yüksək nüfuzu sayəsində Azərbaycan iqtisadiyyatına 15 milyard dollar xarici investisiya yatırıldı. Əlbəttə, perspektivi olmayan ölkəyə heç bir xarici şirkət, dövlət investisiya yatırmaz. Baxmayaraq ki, Azərbaycan üçün çətin dövr idi, amma 15 milyard dollar xarici investisiyanın yatırılması ölkə iqtisadiyyatı üçün möhtəşəm hadisə idi. Bu məbləğ indiki kursla 150 milyard deməkdir. Bu da Azərbaycan iqtisadiyyatının inkişafında mühüm rol oynadı. Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyası, ölkənin çiçəklənməsi və tərəqqisi məhz Heydər Əliyevin siyasətinin, Onun böyük zəhmətinin nəticəsi idi.



Heydər Əliyev ölkəsini bütün dünyada etibarlı tərəfdaş kimi tanıtdı. Mən şahidi olmuşam ki, dünya liderləri Heydər Əliyev haqqında necə böyük ehtiramla danışırdılar.

Heydər Əliyev hər zaman dünya ölkələri ilə bərabərhüquqlu, qarşılıqlı maraqlara əsaslanan əlaqələr qurmağı arzu edirdi və belə də oldu. Müasir Azərbaycan bu gün beynəlxalq aləmdə layiqli yerini tutub. 2011-ci ildə Azərbaycan iki il müddətinə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi. 2020-ci ildən isə dünyanın 120 dövlətinin üzv olduğu Qoşulmama Hərəkatına sədrlik edir. Bu ondan xəbər verir ki, Azərbaycanın dünyanın hər yerində etibarlı tərəfdaşları və dostları var. Azərbaycan bu yanaşma ilə öz iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirir. Əlbəttə, müasir Azərbaycan Heydər Əliyevin müəyyənləşdirdiyi siyasət nəticəsində bu nailiyyətlərə imza atır. Bütün dünya bu nəhəng şəxsiyyətin fəaliyyətinə şahidlik edib".

Heydər Əliyevin ölkəsində çox sevildiyini və 2023-cü ilin "Heydər Əliyev İli" elan olunmasından məmnun olduğunu bildirən Gürcüstanın Azərbaycandakı sabiq səfiri Zurab Qumberidze də çıxışında Ulu Öndərlə bağlı xatirələrini bölüşüb. Bildirib ki, 1995-ci ildə Gürcüstan Respublikasının Azərbaycanda diplomatik nümayəndəliyi fəaliyyətə başlayıb və o, 1997-ci ildən 2007-ci ilə qədər ölkəmizdə səfir kimi fəaliyyət göstərib. Həmin müddətdə Ümummilli Liderlə dəfələrlə görüşüb. Ulu Öndər öz dəyərli məsləhətləri ilə gənclərə həmişə dəstək olub.

Z.Qumberidze qeyd edib ki, onun səfir kimi fəaliyyəti dövründə Azərbaycanın siyasətində enerji strategiyası prioritet istiqamətlərdən biri idi. Ümummilli Liderin müəllifi olduğu "Əsrin müqaviləsi" nəinki Azərbaycanın, ümumilikdə Cənubi Qafqazın siyasi-iqtisadi mənzərəsini dəyişdi. Heydər Əliyev vurğulamışdı ki, bu enerji layihəsi olmaqla yanaşı, həm də layihədə iştirak edən ölkələr arasında əlaqələri şərtləndirən böyük siyasətdir.

Ulu Öndərin həmin vaxt Türkiyə Prezidenti olan Süleyman Dəmirəl və Gürcüstanın dövlət başçısı Eduard Şevardnadze ilə dostluqlarını xatırladan diplomat bu reallığın birbirinin xoş gününə sevinən, acılarına kədərlənən qonşu xalqların mehriban dostluq münasibətlərinə də müsbət təsirindən danışıb: "Bu üç görkəmli dövlət xadiminin hər görüşü gələcəyə baxış idi. Onlar həmin vaxt bugünkü günlərimizi görür və planlaşdırırdılar. Azərbaycanın öz ərazi bütövlüyünü təmin etməsinin təməli də məhz illər əvvəl Heydər Əliyev tərəfindən qoyulub.

Sevindirici haldır ki, tarixən mövcud olmuş və Heydər Əliyevin fəaliyyəti dövründə daha da inkişaf etmiş Gürcüstan-Azərbaycan dostluğu bu gün də ən yüksək səviyyədədir".

Z.Qumberidze Ulu Öndərin Azərbaycanı bir memar kimi yenidən qurduğunu, Onun siyasətinin böyük amallarının varisi - Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Məhz Prezident İlham Əliyevin qətiyyətli siyasəti sayəsində Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib. İndi ölkədə Böyük Qayıdış prosesinə start verilib ki, bu, Azərbaycanın həyatında yeni mərhələdir. Prezident İlham Əliyev Cənubi Qafqazda davamlı sülhün təmin olunması üçün də mühüm addımlar atır. Bu siyasi kurs Azərbaycanı parlaq gələcəyə aparmaqla bərabər regionun inkişafını da şərtləndirəcək mühüm amildir.

Zurab Qumberidze Ulu Öndər Heydər Əliyevin qurduğu və Prezident İlham Əliyevin inkişaf etdirdiyi Azərbaycanı çox sevdiyini bildirib.

Çıxış edən YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova qeyd edib ki, müasir Azərbaycanın beynəlxalq münasibətlər sisteminə inteqrasiyasının, eləcə də ölkəmizin dünya birliyində mövqelərinin möhkəmləndirilməsinin əsası məhz Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Lider Heydər Əliyev Azərbaycanı dünyada tanıtmağı, ölkənin milli-mənəvi dəyərlərini, mədəniyyətini təbliğ etməyi, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq qurmağı əsas vəzifə kimi qarşıya qoymuşdu. Azərbaycan bütün beynəlxalq platformalarda Ermənistanın ölkəmizə qarşı işğalçılıq siyasətini ifşa edib.

Sədaqət Qəhrəmanovanın sözlərinə görə, Heydər Əliyevin dünya siyasətində ən mühüm uğurlarından biri də bütün manelərə baxmayaraq, Cənubi Qafqazda qlobal iqtisadi layihələrin təməlinin qoyulmasıdır. Bunun bariz sübutu kimi 20 sentyabr 1994-cü ildə Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində imzalanan "Əsrin müqaviləsi", bir-birinin ardınca həyata keçirilən neft-qaz layihələri xüsusi qeyd edilməlidir.

"Ulu Öndər uzaqgörənliklə söyləyirdi ki, "Biz bu çətin günləri keçib gedəcəyik, müstə-



qil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutacaqdır". Bəli, Ulu öndərin 30 il öncə dediyi sözlər bu gün reallıqdır. Hazırda ölkəmiz dünyada sivil, demokratik, qanunun hakim olduğu inkişaf etmiş bir dövlət kimi qəbul edilir. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən aparılan xarici siyasət kursu ölkəmizi dünyanın nüfuzlu dövlətləri sırasına yüksəldib. Azərbaycan dünyanın mötəbər təşkilatlarının tədbirlərinin keçirildiyi məkana çevrilib, beynəlxalq münasibətlərdə əməkdaşlıq əlaqələri yeni mərhələyə qədəm qoyub. Azərbaycan öz ərazilərini Ermənistanın işğalından azad edib. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan xarici siyasət kursumuz ölkəmizin beynəlxalq müstəvidə nüfuzunu əhəmiyyətli dərəcədə yüksəldib.



Azərbaycan dünya ölkələri ilə dostluq və qarşılıqlı ikitərəfli və çoxtərəfli əlaqələrini inkişaf etdirməklə Cənubi Qafqaz regionunda və onun sərhədlərindən kənarda sülh şəraitində birgəyaşayış prinsipini təşviq edir",-deyə YAP Veteranlar Şurasının sədr müavini vurğulayıb.

Konfransa yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov tədbir iştirakçılarına təşəkkürünü bildirib. O qeyd edib ki, çıxış edənlərin Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev haqqında xatirələri, Onun barəsində dəyərli fikirləri bütövlükdə xalqımıza və onun görkəmli oğluna - dahi şəxsiyyətə olan ehtiramın parlaq nümunəsidir. T.Budaqov qeyd edib ki, bütün çıxışların məzmun və mənası Heydər Əliyevin dahi şəxsiyyət olduğunu bir daha təsdiq edir. Heydər Əliyev öz həyatı ilə müasir Azərbaycanın tarixini yaratdı və özü də əbədi olaraq tariximizə həkk olundu. Məşhur alman filosofu Şopenhauerin "istedadlı şəxs odur ki, heç kəsin vura bilmədiyi, dahi şəxs isə odur ki, heç kəsin görə bilmədiyi hədəfi vurur" kəlamını xatırladan T.Budaqov Heydər Əliyevin uzaqgörənliyini xüsusi qeyd edərək Onun qəbul etdiyi qərarların, yeritdiyi siyasətin hələ uzun illər bundan sonra da Azərbaycana xidmət edəcəyinə əminliyini ifadə edərək konfrans iştirakçılarına Heydər Əliyev irsinin tədqiqi və təbliği, Heydər Əliyev yolunun davam etdirilməsi sahəsində hər kəsin öz imkanları daxilində həyata keçirdiyi fəaliyyətdə uğurlar arzulayıb.

# Fransanın sülh əleyhinə yürütdüyü MİLİTARİZASİYA SİYASƏTİ

**Fransanın son zamanlar Ermənistanı silahlandırması onsuz da gərgin olan Cənubi Qafqazı barıt çəlləyinə çevirir. Bu silahlandırmanın nə demək olduğunu, bunun sonda ələlxüsus ermənilər üçün hansı fəlakətlər vəd etdiyini isə, belə görünür ki, Ermənistan tərəfi qətiyyən başa düşmür və heç başa düşmək də istəmir. Əks halda, Fransa Silahlı Qüvvələrinin naziri Sebastyan Lekornunun dəvəti ilə Ermənistanın müdafiə naziri Suren Papikyan tələm-tələsik Fransaya yollanmazdı və etiraf da etməzdi ki, məhz Fransa silahlarının tədarükü ilə bağlı müqavilə imzalamaq üçün Parisə gedib.**




Ermənistanın məhz Fransa tərəfindən silahlandırılmasını təsdiq edən bir sıra faktlar artıq ortadadır. Bunlar heç gizlədilmir də. Əslində, fransızların öz erməni bacılarına silah ötürəcəyi barədə bu ilin birinci rübündə, daha dəqiq desək, mart ayında bir çox məlumatlar artıq mediada belə açıq şəkildə yayılmışdı. Yayılan məlumatlarda Fransanın 50 ədəd VAB MK3 zirehli transportyorlarını, "Bastion" və "Şerpa" zirehli maşınlarını İrəvanın alacağı barədə qeyd olunurdu. Suren Papikyanın iyun ayında Fransaya səfəri ilə bu məlumatların doğruluğu öz təsdiqini tapdı və Ermənistanın müdafiə nazirinin bu səfəri zamanı işğalçı ölkəyə silah satışı məsələsi artıq real olaraq qəbul olundu. Məhz Papikyanın Fransaya bu son səfəri ərəfəsində isə onun fransalı həmkarı Sebastyan Lekornu işğalçı ölkəyə silah tədarükü ilə bağlı çəkinmədən fikirlər səsləndirib. "Oktyabrın 23-də tərəflər Ermənistana silah tədarükü haqqında saziş imzalayacaqlar", - deyən Lekornu əslində, Ermənistana silah tədarükü ilə bağlı həqiqətləri tam açıq şəkildə etiraf edib. Lekornu Fransa nəşrinə onu da açıq şəkildə bildirib ki, rəsmi Paris Ermənistanı böyük miqdarda silahla, ələlxüsus da hava hücumundan müdafiə sistemləri ilə təmin edəcək. Bu isə o deməkdir ki, Fransa ciddi-cəhdlə Cənubi Qafqazı qarışdırmaq və bulanıq suda balıq tutmaq niyyətindədir, amma ermənilər bunun fərqində deyillər.

Heç də artıq sirr deyil ki, Fransa öz mövcudluğu naminə nəyin bahasına olursa-olsun strateji əhəmiyyətli regionda, Cənubi Qafqazda sabitliyi əsaslı şəkildə pozmaq niyyətindədir. Bunun üçün də məhz Ermənistan-Azərbaycan münaqişəsinin yenidən qızışdırılmasında hədsiz dərəcədə maraqlıdır. Sözsüz ki, rəsmi Bakıya təsir imkanları olmayan Paris məhz İrəvanı hədəfə alıb və ermənilər özləri də dərk etmədən, yaxud dərk edərək fransızların alətinə, marionetinə çevrilməkdədirlər. Çünki artıq Fransa çoxdan Ermənistanı özünə alət olaraq seçib və görünən də odur ki, haylar da fransız bacılarının bu oyununda alət olmağı artıq qəbul da ediblər, əks halda hövlnak şəkildə Parisə qaçmazdılar. Erməni ambisiyalarından məharətlə istifadə edən Paris erməni lobbisinin silah tədarükü məsələsinin "haqqını" onlara artıqlaması ilə ödəyəcəyinə əmin olduğu üçün tam sərbəst şəkildə manipulyasiya etməkdə davam edir.

"Ermənistan silahlı olmalıdır, çünki onun yanında daim düşmənçilik hərəkətləri edən qonşusu var", - deyən Lekornuyu əlbəttə ki, bununla ermənilərin fransızlar tərəfindən silahlandırılmasına "don geyindirməyə" çalışır. Yəni, bir bəhanə tapıb ortaya çıxarır ki, guya onlar işğalçı ölkəyə silah tədarükünü sırf dinc məqsədlər üçün edirlər. Daha dəqiq desək, Ermənistana silah tədarükünə heç kimin bir söz deyə bilməməsi üçün Lekornuyu ermənidən betər bir erməni kimi davranır, manipulyasiya edir və hələ üstəlik, səbəb olaraq da Azərbaycanı "təcavüzkar ölkə" adlandırır. Bəli, regionda sülhün təminatçısı olan Azərbaycanı belə adlandırır. Düz otuz ilə yaxın müddət ərzində torpaqları ermənilər tərəfindən işğal olunan bir ölkəni, hərbi qələbə qazanandan sonra Üçtərəfli Bəyannamənin 9-cu bəndi üzrə İrəvanın öhdəliklərini yerinə yetirməsi səbəbindən üç ildir səbirlə gözləyən Azərbaycanı belə adlandırır və utanmaq kimi bir niyyətinin olduğu da görünmür. Ona görə ki, ölkəsinin niyyətindən özü də xəbərdardır və onun üçün Ermənistan, yaxud da Azərbaycan yox, Cənubi Qafqaz maraqlıdır və region müzakirə mövzusudur. Bu baxımdan da, ermənilərin düşmənçilik hisslərindən istifadə etməyi daha doğru hesab edir. Məhz hayların bu hissindən istifadə edən Fransa həmin ölkədə hərbi qüvvənin gücləndirilməsinə, müharibəyə hazırlıq məqsədi ilə hərbi gücün intensiv artırılmasına yönəldilmiş siyasət yürüdür, yəni özünə məxsus olan militarizasiya siyasətini davam etdirir. Rəsmi Parisin belə irticaçı silahlanma siyasəti Cənubi Qafqaz üçün yaxşı heç nə vəd etmir. Hərbi gücünün tətbiqini dəstəkləyən siyasi ideologiya ilə bölgəyə soxulmaq arzusunda olan Fransanın niyyəti heç də sülhə yönəlik deyil, özünün imperialist və ekspansionist ideologiyasının Cənubi Qafqazda da tətbiq edilməsi məqsədi güdülür. Yəni, Fransa öz imperialist siyasətinə, öz ənənəsinə uyğun olaraq, dövlət maraqlarına müvafiq şəkildə olmaqla, digər dövlətlərin daxili işlərinə qarışmaq üçün əlindən gələni edir.

Bölgədəki silahlı birləşmələrin Azərbaycan tərəfindən tərksilah edilməsindən sonra onların silahlandırılması heç bir məntiqə sığışmır. Belə çıxır ki, Fransa qanunsuz silahlı birləşmələrin tərksilah edilməsinin əleyhinə imiş. Hətta belə bir nəticə çıxarmaq olur ki, erməniləri silahlandırmaqla, Fransa məhz Azərbaycanın bölgədə təhlükəsizliyin təminatı üçün gördüyü tədbirlərin əleyhinə çıxış edir. Azərbaycan tərəfindən qanunsuz silahlı birləşmələrin tərksilah edilməsinin ardınca sülh gündəliyi irəli sürüldüyü halda, Fransa hansı məntiqlə, hansı əqidə, hansı niyyətlə bölgəyə silah-sursat göndərir? Təbii ki, silahlıların tərksilah edilməsinin ardınca onların silahlandırılması birbaşa sülh prosesinə maneçilik kimi qiymətləndirilir. Hər kəs artıq bilir ki, Fransa bununla sülh prosesinə böyük zərbə vurmuş, həmin prosesə mane olmuş olur. Həm də erməniləri belə silahlandırmaqla Fransa təkcə sülhə mane olmur, həm də münaqişəni yenidən qızışdırır. Çünki tərksilah edilmişləri yenidən silahlandırmaq onları yeni təxribatlara təhrik etmək, yeni münaqişə üçün zəmin yaratmaq deməkdir.

Avropa İttifaqı missiyasının Ermənistana göndərilməsinə bir vaxt təkid edən Fransanı, belə çıxır ki, həmin o missiyanın fəaliyyəti qane etmir. Sual oluna bilər ki, nəyə görə axı Parisi məhz həmin missiyanın fəaliyyəti qane etmədi? Axı həmin missiya sivil şəkildə nəzərdə tutulmuşdu və heç bir başqa güc niyyəti yox idi, həm də sözügedən missiyanı Ermənistan tərəfi də özü istəmişdi. Bütün bunların fonunda indi birdən-birə hərbi missiya haqqında danışılır və əlbəttə ki, bunlar səbəbsiz yerə deyil. Dünya ictimaiyyəti hər şeyi çox gözəl müşahidə edir və şahiddir ki, Cənubi Qafqaza soxulmaq, özünə yer eləmək, sonra da istədiyi siyasəti, yəni bu vaxta qədər yürütdüyü müstəmləkəçilik siyasətini bölgədə yürütmək üçün çalışır. Elə Fransanın Ermənistanda daimi hərbi attaşesinin təyinatına hazırlıq görməsi də onun necə və hansı məqsədlər üçün çalışdığını ortaya qoyur. Bu Avropa ölkəsinin, məhz özünün neo-müstəmləkəçilik indi də Cənubi Qafqaza daşımaq istədiyi artıq zərrə qədər də şübhə doğurmur. Məsələ burasındadır ki, bu istəyi, bu niyyəti görən Qərb sadəcə susmaqla və müşahidəçi mövqeyi ilə belə həmin o siyasəti dəstəkləyir. "Hələ müharibəni dayandırmağın vaxtı deyil", deyərək Yaxın Şərqdəki hadisələri şərh edən ABŞ Prezidentinin sözlərindən belə məlum olur ki, Qərb bölgədə qətiyyən sülh bağlanmasını istəmir. Bu isə onu deməyə əsas verir ki, hər iki tərəfdən minlərlə insanın ölümünə səbəb olan qanlı döyüşləri dayandırmamaq, müharibəni daha da alovlandırmaq təkcə Fransanın niyyəti deyil, elə Qərb də bu niyyətdədir. Yəni, bunların heç birinin sülh danışıqlarında maraqlı olmadığı dəfələrlə öz təsdiqini tapıb və yenə də öz təsdiqini tapmaqdadır.

Nəzərə almaq lazımdır ki, hər mənada qeyri-sağlam olan Paris-İrəvan tandemi regionun digər ölkələrinə də öz istəklərini reallaşdırmağa imkan verməmək deməkdir. Ələlxüsus da, Qərblə qarşıdurmasını nəzərə alsaq, Ermənistanın Fransa ilə hərbi tərəfdaşlığı Rusiya üçün heç qəbuledilən deyil və rəsmi Moskva bunu özünə qarşı birbaşa meydan oxumaq kimi başa düşür. Eyni zamanda, Qərblə onilliklər ərzində soyuq müharibə şəraitində olan İran üçün də Fransanın Ermənistanı "müdafiləsi" arzuolunan deyil. Rəsmi Tehranın reaksiyası kəskin olmaya bilər, amma Moskvanın bundan sonra uzun müddət səbir edəcəyi artıq ağlasığan deyil. Bu barədə fikirlərə Rusiya mediasında da rast gəlinir və ələlxüsus da ekspertlər Ermənistanın Suriya və Ukrayna kimi taleyi yaşaya biləcəyi barədə xəbərdarlıqlar da səsləndirirlər. Qeyd olunur ki, Rusiya və İranın İrəvana təzyiq göstərmək üçün kifayət qədər mexanizmləri, rıçaqları var və təzyiq göstərildiyi zaman nə ABŞ, nə də Aİ-nin Ermənistandakı missiyası ermənilərə kömək edə bilməyəcək. Moskva artıq açıq-aşkar şəkildə İrəvanı anti-Rusiya təxribatlarında ittiham edir. Məsələn, TASS Agentliyinin hökumət dairələrində adı açıqlanmayan mənbəyinə istinadən verdiyi məlumata görə, Kreml Ermənistanın baş nazirinin Avropa Parlamentindəki çıxışını təxribat kimi qiymətləndirib. Moskva dolayısı ilə də olsa, açıq şəkildə bildirir ki, Ermənistan Qərbin yolu ilə getməyə davam edərsə, Ukrayna ssenarisi ilə üzləşmək təhlükəsi var. Daxili amillər, eləcə də Ukrayna münaqişəsinin diqqətini yayındırması səbəbindən Rusiya hələ də İrəvanın hiylələrinə dözür. Amma Moskva "hərəkətə keçəndə" Paşinyanın yüksək səslə vurğuladığı qərbyönlü siyasəti və ritorikası, Fransa ilə tərəfdaşlığı heç nəyə yaramayacaq və Ermənistan özünü strateji baxımdan ümidsiz vəziyyətdə görəcək. Məsələ burasındadır ki, hələ də Ermənistan rəhbərliyi bu təhlükəni ya başa düşmür, ya da buna məhəl qoymur. Amma biz çox yaxşı başa düşürük ki, ermənilər tərəfindən buraxılan səhvlər bölgədə təhlükəsizlik üçün çox müəmmalı bir vəziyyət vəd edir.

Avropa İttifaqı özü də Fransanın uydurmalarına qapılır. Yaxud da bu qurum sadəcə olaraq, elə bil fərqində deyil ki, 30 ilə yaxın qonşu dövlətin ərazisini işğal edən və beynəlxalq hüquqa açıq şəkildə məhəl qoymayan təcavüzkar ölkəni Fransanın təhriki ilə dəstəkləyir. Elə bil fərqində deyil ki, Aİ-nin bu ikili standartların təzahürü olan mövqeyi praktiki olaraq Avropanın, Fransanın və bütövlükdə Qərbin siyasətinin əsas prinsipinə çevrilib. Mahiyyət etibarı ilə Fransanın marionetinə çevrilmiş Aİ-nin ikiüzlü davranışı bu quruma Azərbaycanın da inamına çox mənfi təsir göstərir, digər dünya ölkələrinin də. Çünki hamı çox yaxşı başa düşür ki, bir müddətdir Avropa Parlamentində Bakıya qarşı sanksiya çağırışlarının səslənməsi elə həmin o Parisdən "ilham alınmaqla" olub. İndi də Makron və onun ölkəsi Ermənistanı silahlandırmaqla heç də sülh və humanizm yolunda deyil və burada erməniləri müdafiə etmək niyyəti güdülmür. Avropa İttifaqı da, digər beynəlxalq təşkilatlar da, dünya ictimaiyyəti də, elə ermənilər özləri də bilməlidirlər ki, Fransa Afrikadakı reputasiya itkilərini kompensasiya etmək üçün İrəvanı əsarət altına almağa çalışır. Bunun isə bölgə üçün yaxşı heç nə vəd etmədiyi öncədən görünür. Ola bilsin ki, ermənilər bunu görməyə bilərlər, amma hər bir halda vəziyyət nəzarət altında saxlanılmalıdır ki, regionda, Cənubi Qafqaz regionunda Fransa münaqişəni qızışdıraraq təhlükəsizliyə təhdid yarada bilməsin.

Həqiqətən də Qərb, rəsmi Paris, eləcə də Emmanuel Makron birbaşa Cənubi Qafqaza yönəldilmiş elə bir siyasət yürüdür ki, tərəflər arasında münaqişəni, qarşıdurmanı daha da qızışdırıb əraziyə nəzarəti ələ alsın. Özü də Rusiya prezidenti Putinin başının Ukraynaya qarışdığı bu vaxtı, bu zaman kəsiyini ən münbit şərait hesab edirlər. Ola bilsin ki, Fransanın, onun liderinin bu niyyətinin region ölkələrinin təhlükəsizliyi üçün təhdid olduğunu ermənilər, rəsmi İrəvan dərk etməyə bilər, amma Bakı buna yol verməyəcək. Nə qədər ermənilər silahlandırılsa da, fransız bacıları nə qədər onlara ürək-dirək verməklə yanaşı, silah da versələr, Azərbaycan regionda təhlükəsizliyə təhdid ola bilən məqamlara qətiyyən şərait yaradılmasına imkan verməz. Azərbaycan Cənubi Qafqazda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi mövqeyindən geri çəkilmədən, Parisin neokolonial üsulları da daxil olmaqla, beynəlxalq hüququn icazə verdiyi bütün imkanlardan istifadə edərək, regionda sabitliyin pozulmasına heç bir şəkildə razı olmayacaq və buna qarşı çıxacaq.

***İnam Hacıyev***






# Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur

## Yardımlı rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib

**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində YAP Yardımlı rayon təşkilatı oktyabr ayının 25-də tədbir keçirib. Əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin xatirəsi ehtiramla yad olunub.**

Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

YAP Yardımlı rayon təşkilatının sədri Anar Alışov tarixi şəxsiyyət, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan xalqının taleyində misilsiz rolundan danışıb, Azərbaycan tarixinin bütöv bir dövrünün dahi şəxsiyyətin şərəfli adı və möhtəşəm fəaliyyəti ilə bağlı olduğunu deyib. Onun sözlərinə görə, Ulu Öndərin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz bütün sahələrdə böyük inkişaf yolu keçib. Bu gün Heydər Əliyevin banisi olduğu müstəqil Azərbaycan dünyada güclü və nüfuzlu dövlətə çevrilib.

Yardımlı rayon İcra Hakimiyyətinin başçısı Ayaz Əsgərov bildirib ki, Ulu Öndərin müstəqillik illərində ölkəmizə rəhbərliyi dövrü Azərbaycan xalqının tarixi yaddaşına sabitlik və inkişaf mərhələsi kimi həkk olunub. Ulu Öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına həsr edib və onun zəngin irsi bugünkü uğurlarımızı şərtləndirir. O, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində ölkəmizin tarixi uğurlara imza atdığını söyləyib.

YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Anar İsgəndərov vurğulayıb ki, Ulu Öndər Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dönəmlərdə liderlik missiyasını layiqincə yerinə yetirib. Onun uzaqgörən və məqsədyönlü siyasəti sayəsində müstəqilliyimizin dönməzliyi təmin edilib və Azərbaycan böyük intibah yoluna qədəm qoyub.

Milli Məclisin deputatı Musa Qasımlı Ulu Öndər Heydər Əliyevin həyatının xalqa xidmətin ən mükəmməl örnəyi olduğunu deyib. O bildirib ki, Ümummilli Lider Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılmasında və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynayıb.

Milli Məclisin deputatı Məşhur Məmmədov qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev azərbaycançılıq məfkurəsinin, azərbaycançılıq ideyasının banisidir. Dahi rəhbərin müəllifi olduğu, sistemləşdirdiyi azərbaycançılıq ideologiyası təkcə bu ölkənin ərazisində yaşayan insanları yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edir. Ümummilli Liderimizin ideya və prinsiplərinə sadiq qalan Prezident İlham Əliyevin Ulu Öndərin siyasətini uğurla davam etdirməsi nəticəsində həmvətənlərimizin birlik və həmrəyliyi daha da möhkəmlənib.

Yardımlı rayon Alçabulaq kənd tam orta məktəbinin direktoru, şəhid atası Ədalət Qarayev və Yardımlı şəhər 1 saylı tam orta məktəbin müəllimi Aygün Şabiyeva bildiriblər ki, Ulu Öndərin müstəqillik illərində ölkəmizə rəhbərliyi dövrü Azərbaycan xalqının tarixi yaddaşına sabitlik və inkişaf mərhələsi kimi həkk olunub. Bu gün müasir Azərbaycan Heydər Əliyev ideyaları əsasında inkişaf edərək zirvələr fəth edir. Sonda rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərmanlar təqdim olunub.

# Astara rayonunda "Ailə: sosial normalar və dəyərlər" mövzusunda tədbir keçirilib







Yeni Azərbaycan Partiyası (YAP) Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun 2023-cü il üçün birgə Tədbirlər Planına uyğun olaraq oktyabrın 25-də Astara rayonunda "Ailə: sosial normalar və dəyərlər" mövzusunda tədbir keçirilib.

Əvvəlcə tədbir iştirakçıları müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət edib, abidənin önünə gül dəstələri düzüblər. Dahi şəxsiyyətin əziz xatirəsi dərin hörmət və ehtiramla yad olunub. Astara rayon Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Astara, Cəlilabad, Lerik, Lənkaran, Masallı və Yardımlı rayonlarını təmsil edən gənclər iştirak ediblər.

Tədbirdə YAP Astara rayon təşkilatının sədri Həbib Cəfərov, YAP Mərkəzi Aparatının Gender siyasəti və gənclərlə iş şöbəsi müdirinin müavini Zəkiyyə Musayeva, Astara Rayon İcra Hakimiyyəti başçısının müavini, ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Firəngiz Sadıxova, Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun Milli İnformasiya sektorunun müdiri Raqif Allahverdiyev, Səhiyyə Nazirliyi Sumqayıt şəhər Narkoloji Dispanserinin şöbə müdiri, həkim-narkoloq Vüsal Cabbarov və Astara Rayon Polis şöbəsinin əməliyyat işləri üzrə rəis müavini, polis-mayoru Orxan Novruzov çıxış ediblər.

Çıxışlarda qeyd olunub ki, bu gün qlobal dünyanın əsas çağırışlarından biri narkomaniya və narkobiznesə qarşı mübarizədir. Ölkəmiz bu bəlaya qarşı mübarizədə səylərini artırır, bu və ya digər sahələrdə yaratdığı fəsadların aradan qaldırılması üçün konkret tədbirlərin həyata keçirilməsini daha da sürətləndirir. Dövlət başçısı İlham Əliyevin 22 iyul 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifə və tapşırıqları yerinə yetirmək məqsədilə artıq ikinci ildir ki, YAP Mərkəzi Aparatının, "Azərbaycan Televiziyası və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin və Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi Qrupunun birgə Tədbirlər Planına əsasən respublikamızın müxtəlif bölgələrində aidiyyatı dövlət qurumlarının mütəxəssislərinin iştirakı ilə silsilə tədbirlər keçirilir. Məqsəd gəncləri məlumatlandırmaq və maarifləndirmə yolu ilə sağlam gələcəyimizin təmin olunmasına töhfə verməkdən ibarətdir.

Çıxışlarda bu mühüm məqam xüsusi qeyd edilib ki, ailə sağlam cəmiyyətin və güclü dövlətin təməlidir. Ailə ənənələrin qoruyucusu və ötürücüsüdür. Fərd ailədə sosiallaşır, bəşəriyyətə uğurla xidmət etmək üçün zəruri olan keyfiyyətləri əldə edir. Ailə dəyərlərinin qorunmasında cəmiyyətin, dövlətin bütün institutları fəal və məsuliyyətli olmalıdır. Cəmiyyətin hər bir üzvü ailələri narahat edən problemlərin həlli istiqamətində dövlətə yaxından köməklik etməlidir. Sağlam, möhkəm ailə hər bir cəmiyyətin çiçəklənməsinin qarantıdır. İnteraktiv formada davam edən tədbirdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.




# Mətbuat Şurası və MEDİA Agentliyi region mediasının inkişafı ilə bağlı müzakirələr aparıb

Oktyabrın 24-də Azərbaycan Mətbuat Şurasında İdarə Heyətinin üzvləri ilə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun və qurumun rəhbər şəxslərinin görüşü keçirilib. MEDİA-dan AZƏRTAC-a bildiriblər ki, tədbiri giriş sözü ilə açan Mətbuat Şurasının sədri Rəşad Məcid Şuranın təmsilçiləri ilə MEDİA rəhbərliyinin təmaslarının media məkanımızdakı proseslərlə bağlı fikir mübadiləsi aparmaq baxımından əhəmiyyətli cəhətlərinə toxunub, görüşlərin ənənəvi xarakter almasından məmnunluğunu dilə gətirib.

Görüşdə əsasən ölkəmizdə region mediasının hazırkı vəziyyəti və perspektiv inkişaf istiqamətləri ilə bağlı məsələlər müzakirə olunub.

Ə.İsmayılov bildirib ki, rəhbərlik etdiyi qurum Quba və Lənkəranda region mətbuatının nümayəndələri ilə görüşlər keçirib. Sistemli xarakter daşıyan bu görüşlərdə məqsəd regionlardakı media mühitinin diaqnostik qiymətləndirməsini apararaq bu sahənin inkişafına istiqamətlənən addımlar atmaqdır. Görüşdə Mətbuat Şurasının İdarə Heyətinin üzvlərinin təklifləri dinlənilib və sualları cavablandırılıb.

Xatırladaq ki, 2022-ci il oktyabrın 12-də Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi və Azərbaycan Mətbuat Şurası arasında əməkdaşlıq memorandumu imzalanıb. Sənədin imzalanmasında məqsəd MEDİA Agentliyi və Mətbuat Şurası arasında müştərək layihələrin reallaşdırılması istiqamətində effektiv və faydalı əməkdaşlıq münasibətlərinin qurulması, media mühitinin şəffaflaşdırılması, jurnalistlərin peşəkarlığının və cəmiyyətin media savadlılığının artırılması, etik davranış qaydalarının tətbiqi sahəsində proseslərin stimullaşdırılması və bu məqsədlə digər fəaliyyətlərin koordinasiya edilməsidir.

# Türkiyə Qarabağın bərpasında da Azərbaycanın ən yaxın müttəfiqidir

## PREZİDENT İLHAM ƏLİYEV: "Bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük"



El arasında gözəl bir məsəl var: ”Yaxşı dost dar gündə sınanar!”. Bu deyimi, təkcə fərdi-insani münasibətlərə deyil, həmçinin xalqlar, dövlətlər arası münasibətlərə də şamil etmək olar. Yaxın keçmişdə erməni təcavüzkarları tərəfindən xalqımızın başına gətirilən müsibətlər danılmaz bir həqiqəti - Azərbaycan Türkiyə arasındakı qədim dostluq-qardaşlıq bağlarını bir daha yenilədi, bu bağların əbədi və sarsılmaz olduğunu göstərdi. Çünki onların kökləri çox dərindədir. Ulu Öndərimiz Heydər Əliyev deyirdi: ”Türkiyə ilə Azərbaycanın əlaqələrinin qədim və zəngin tarixi var. Bu əlaqələr dostluq, qardaşlıq əlaqələridir. Həmin əlaqələrin mənbəyi bizim müştərək tarixi köklərimizdir, eyni kökə mənsubiyyətimiz, dilimizin, dinimizin, adət-ənənələrimizin eyni olmasıdır. Bütün bunlar əsrlər boyu bizi bərabərliyə, dostluğa, əməkdaşlığa çağırıbdır”.

Həyatımızın hər sahəsində izi görünən, nəfəsi duyulan ümummilli liderimiz Heydər Əliyevin illər öncə müdrikcəsinə söylədiyi - ”Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir” və böyük öndər Mustafa Kamal Atatürkün ”Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, - kəlamları yaşadığımız günlərdə bir daha tarixiləşdi, toplumun bütün kəsimləri tərəfindən bəyənilən, uşaq-




dan-böyüyə hər kəsin dilinin əzbəri olan, istər sosial şəbəkələrdə, istərsə də cəmiyyət həyatının hər hansı bir sahəsində ən çox işlədilən ifadəyə çevrildi.Və bu gün Ermənistanın 30 ilə yaxın bir müddətdə işğal altında saxladığı və Vətən müharibəsində də, əldə edilən parlaq Qələbə ilə azad edilən ərazilərimizdə bərpa-quruculuq layihələrinin icrasına başlanılan bu prosesdə də Türkiyə şirkətlərinin fəaliyyəti daha çox diqqət çəkib. Dövlətimizin başçısı çıxışlarında Qarabağın bərpası məsələsinə toxunarkən, bu işə müharibə dövründə, habelə savaşdan sonrakı mərhələdə Azərbaycanı fəal dəstəkləyən qardaş və dost ölkələrin cəlb edilməsinin diqqətdə saxlanılacağını bildirib. Prezident İlham Əliyev bu barədə deyib: ”Azad edilmiş ərazilərin qardaş ölkələrlə birlikdə bərpa olunması dövründə fəal qarşılıqlı əlaqələrimizə ümid edirəm. Mən artıq demişəm ki, ilk növbədə və təkcə ilk növbədə deyil, ümumiyyətlə, yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Dünyada belə ölkələr çoxdur, lakin onların arasında elə ölkələr var ki, müharibə dövründə və müharibədən sonrakı dövrdə Azərbaycanı fəal dəstəkləyiblər”. Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə rəsmi səfəri çərçivəsində mətbuata bəyanatında bu barədə deyib ki, bu gün biz bərpa edilən Qarabağda və Zəngəzurda yenə də Türkiyə-Azərbaycan birliyini görürük. Genişmiqyaslı bərpa-quruculuq işləri aparılır. Bu gün əziz qardaşımla bərabər həm dəmir yolunun inşası ilə tanış olduq, ”Dost Aqropark”ın açılışını birlikdə qeyd etdik. Bu da bu bölgəyə birinci özəl sərmayədir və bu aqroparkın adı da - ”Dost Aqropark” özlüyündə hər şeyi deyir. İnşaat, yol çəkilişi işlərində Türkiyə şirkətləri bizimlə bərabər çalışır”.

Biz Türkiyə şirkətlərinə minnətdarıq ki, qısa müddət ərzində böyük işlər görür...Qardaş ölkə Əhmədbəyli- Horadiz-Mincivan- Ağbənd avtomobil və Horadiz-Mincivan- Ağbənd dəmir yollarının salınmasında, Azərbaycan üçün strateji önəm daşıyan Füzuli-Şuşa avtomobil yolunun inşasında, eyni zamanda, Göygöl bölgəsindən Kəlbəcərə ma-



gistralın çəkilişində, habelə digər infrastruktur layihələrinin icrasında, tarixi abidələrimizin bərpasında səmərəli fəaliyyət göstərib. Dövlətimizin başçısı çıxışlarının birində bu barədə deyib: ”Bu bölgələrin - Şərqi Zəngəzur və Qarabağ bölgələrinin bərpası üçün bizə ən çox dəstək verən yenə də qardaş Türkiyəmizdir. Türkiyənin bir çox şirkətləri bu gün bizim üçün çox önəmli infrastruktur layihələrində çalışırlar, - körpülər, tunellər, yollar, dəmir yolları, elektrik stansiyaları, hava limanları,- bütün bu işlərdə fəal iştirak edirlər. Hörmətli Cümhurbaşqanı ilə birlikdə açdığımız Füzuli Hava Limanının inşasında Azərbaycan şirkətləri ilə bərabər, 12 türk şirkəti iştirak etmişdir. Hesab edirəm, məhz buna görə biz hava limanını rekord müddət ərzində, cəmi 8 ay ərzində inşa edə bildik. Hazırda Türkiyə şirkətləri, eyni zamanda, Zəngilan Hava Limanının inşasında iştirak edirlər və bizim digər layihələrimizdə iştirak edəcəklər”. Bəli, bu dəstək artıq iki ildir ki, Qarabağ və Şərqi Zəngəzurun bərpası prosesində daha çox diqqət çəkir. Bölgədə tikinti işlərinin aparılmasına Türkiyə şirkətləri tərəfindən 1800 qardaş ölkə vətəndaşının cəlb olunması, onların Füzulidən sonra Zəngilan rayonunda da beynəlxalq hava limanının salınmasında, ”Dost Aqropark”ın qurulmasında, ”Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi”, ”Ağıllı Tingçilik” və ”Dostluq Meşəsi” Kompleksinin təşkilində fəal iştirak etmələri də bunun bariz ifadəsidir.

### SƏRHƏD TANIMAYAN TÜRKİYƏ VƏ AZƏRBAYCAN LİDERLƏRİNİN QARDAŞLIĞI, İKİ DÖVLƏT, BİR YUMRUQ HƏMRƏYLİYİ BİRLİYİNİN, DAR GÜNDƏ, XOŞ GÜNDƏ BİR YERDƏ OLMASININ SARSILMAZ BİRLİYİDİR

Bəli, bu gün Türkiyə və Azərbaycan liderlərinin qardaşlığı, iki dövlət bir yumruq həmrəyliyi birliyi, dar gündə, xoş gündə bir yerdə olması sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Bu sərhəd tanımayan qardaşlıq birliyidir. Və hər iki qardaş dövlətin liderləri və xalqə bir daha dünyaya nümayiş etdirdi ki, bu sarsılmaz qardaşlıq birliyi təkcə dövlətlərarası səviyyədə deyil, dövlət başçıları səviyyəsində deyil, insanlar səviyyəsində də əsl qardaşlıq



əlaqələrinin təsdiqidir və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar, onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur! Çünki Azərbaycan xalqı bu sarsılmaz birliyin qüdrətinə 44 günlük şanlı Vətən müharibəsində gördü və bütün dünya bir daha şahid oldu. Və qələbədən də sonra Türkiyə həmişə olduğu kimi, yenə də haqq işimizi müdafiə edərək Qarabağın azadlığa qovuşdurulmasında Azərbaycana həm mənəvi, həm də siyasi dəstək oldu. Həmin dövrdə nə qədər beynəlxalq təzyiqlərlə qarşılaşsa da, qardaş ölkə bu mövqeyindən bir addım da geri çəkilmədi, daim Azərbaycanın yanında oldu.

Azərbaycan və Türkiyə 2021-ci il 15 iyunda iki dost, qardaş ölkə arasında müttəfiqlik sənədinin - Milli Qurtuluş Günündə Qarabağımızın tacı, musiqi beşiyimiz Şuşada ”Şuşa Bəyannamə”sini imzalanması dünyaya bu birliyin, həmrəyliyin gələcəyi ilə bağlı bir çox məqamları çatdırdı. Vətən müharibəsində dünyaya ”Azərbaycan tək deyil” mesajını ünvanlayan Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Şuşadan ”Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür” bəyan etdi.Budur qardaş dayağı, budur çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti.

### ”BU GÜN DƏ BİZ BİR YERDƏYİK, QARABAĞIN İNŞASINDA BƏRABƏR, ÇİYİN-ÇİYİNƏ ÇALIŞIRIQ”

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birlikdə Rizə-Artvin Hava Limanının açılışında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı bir daha bu birliyin əbədi və sarsılmaz olduğunu bildirib: Azərbaycan Prezidenti İlham Əliyev Türkiyəyə səfəri zamanı bildirib ki, bu gün Qarabağın bərpasında da qardaş Türkiyə Azərbaycanla bir yerdədir. Bir çox Türkiyə şirkətləri, o cümlədən Rize-Artvin hava limanını inşa edən şirkət də Qarabağda bərpa işləri ilə məşğuldur. Dövlət başçımızın da söylədiyi kimi: ”Bu siyasət bizə atalarımızdan qalan mirasdır, atalarımızın vəsiyyətidir və biz bu vəsiyyətə sadiqik. Bu gün iki qardaş ölkənin münasibətlərinin ən yüksək səviyyəyə çatmasında dövlət başçıları arasında mövcud olan dostluq əlaqələrinin rolu böyükdür. Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan arasında möhkəm dostluq təkcə iki ölkə arasında münasibətlərin inkişafına deyil, bütün türk dünyasında əlaqələrin möhkəmlənməsinə xidmət edir”.

Həmişəki kimi, bu gün də Qarabağın bərpası işində türk qardaşlarımız bizimlə bərabər çalışır: ”Minlərlə türk qardaşlarımız bu gün Azərbaycanda Qarabağın inşası ilə bağlı öz işini görür, öz sözünü deyir”.Budur qardaş dayağı, budur çətin günün sınağından çıxmaq. Budur - bir millət, iki dövlət münasibəti. Bəli, bu gün Türkiyə kimi bir güclü dövlətin Azərbacanla bir olması çox dövlətlərin qısqanclığına səbəb olub. Ancaq bir məqamı anlamaq lazımdır ki, Azərbaycan-Türkiyə illərin sınağından çıxmış, bu birlik möhkəmlənmişdir. Bu birliyi isə heç bir qüvvə sındıra




bilməz! Sındıra da bilmədi. Və bu gün Türkiyə və Azərbaycan liderlərinin mütəmadi görüşləri iki dövlətin sarsılmaz birliyinin əyani təzahürüdür. Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur! Dövlət başçımızın söylədiyi kimi: ”Bundan sonra da Türkiyə və Azərbaycan yüksələn xətlə ancaq və ancaq irəliyə gedəcək!”.

**RƏFİQƏ KAMALQIZI**

# Müasir sənaye şəhəri yeni inkişaf dövründə



Azərbaycanın müasir sənaye mərkəzlərindən olan Sumqayıt bu gün özünün yeni inkişaf dövrünü yaşayır. Əhalisinin sayına görə və sahəsinə görə Bakıdan və Gəncədən sonra üçüncü böyük şəhər olan Sumqayıt yarandığı dövrdən etibarən müasir sənaye şəhərinə çevrilmək istiqamətində qazandığı uğurların miqyasını ildən-ilə genişləndirərək parlaq inkişaf yolu keçib. Özünün iri müəssisələr şəbəkəsi və müvafiq infrastrukturunu formalaşdıran şəhər qısa müddət ərzində ölkənin aparıcı sənaye mərkəzlərindən biri kimi tanınmış, eyni zamanda, mədəniyyət, elm, təhsil, səhiyyə, idman və digər sahələrdə böyük müvəffəqiyyətlər əldə etmişdir. Özünəməxsus inkişaf yolu keçən Sumqayıt şəhəri yarandığı zamandan inkişaf mərhələləri keçmişdir. 1949-cu il - Azərbaycan Ali Soveti Prezidiumunun qərarı ilə Sumqayıta şəhər statusu verilib. Tez bir zamanda Sumqayıt Alüminyum zavodu, elmi-tədqiqat institutları və mədəniyyət mərkəzləri tikilir, şəhər infrastrukturu inkişaf etdirilir. Burada Avropanın ən böyük neft-kimya kombinatının tikintisinə başlanılıb. Bir-birinin ardınca yeni müəssisələr - kərpic zavodu, polimer tikinti materialları kombinatı, superfosfat zavodu, tikilərək istehsala başlayır.

Sumqayıtın tarixinin ən əlamətdar səhifələri xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin diqqət və qayğısı sayəsində hələ ötən əsrin 70-80-ci illərində Sumqayıtda xüsusən neft və kimya sənayesinin sürətli inkişafı üçün geniş imkanlar açılmış, zamanın tələblərinə uyğun texnologiyalar əsasında yeni-yeni istehsal sahələri istismara verilmişdir.





## MÜASİR TEXNOLOGİYA ƏSASINDA YENİDƏN QURULAN ŞƏHƏR

Respublikamızın dövlət müstəqilliyinin bərpasından sonra Sumqayıt şəhəri özünün sosial-iqtisadi yüksəliş salnaməsini zənginləşdirməkdə davam etmişdir. Ulu Öndər Heydər Əliyev dəfələrlə Sumqayıtda olmuş, bu şəhərin iqtisadi və mədəni inkişafına, elm və mədəniyyətinin tərəqqisinə daim yüksək qayğı və diqqət göstərmişdir. Ümummilli Liderin Sumqayıtın inkişafı ilə bağlı həyata keçirdiyi bütün tədbirlər sumqayıtlıların yaddaşına əbədi həkk olunmuşdur. Xalqımız milli müstəqilliyə nail olduqdan sonra Ulu Öndər Heydər Əliyevin Sumqayıta diqqət və qayğısı daha da artmışdır. Bu gün Sumqayıtın sosial-mədəni həyatında mühüm irəliləyiş və dəyişikliklər baş verir, şəhər yeni bir inkişaf mərhələsini yaşayır. Ulu Öndərin layiqli davamçısı Cənab İlham Əliyevin Sumqayıt şəhərinə olan diqqət və qayğısı da davamlıdır. Son bir neçə ildə inşa edilən müxtəlif idman kompleksləri, sənaye obyektləri, təhsil və tibb ocaqları, mədəni mərkəzlər bu qayğının parlaq təzahürüdür.

Müvəffəqiyyətlə gerçəkləşdirilən dövlət proqramları və infrastruktur layihələr çərçivəsində "Sumqayıt Texnologiyalar Parkı" və "Sumqayıt Kimya Sənaye Parkı", həmçinin digər mühüm obyektlər qurulmuşdur. Şəhərin iqtisadi strukturuna kimya və neft-kimya, qara və əlvan metallurgiya, maşınqayırma, elektroenergetika, yeyinti və yüngül sənaye, tikinti materialları istehsalı müəssisələri daxildir. Şəhərdə mövcud olan ağır sənaye müəssisələrinin əksəriyyəti müasir texnologiyaya əsasında yenidən qurulmuşdur.

Sumqayıt şəhəri elmin, təhsilin və mədəniyyətin ümumi tərəqqisi işinə bu gün də layiqli töhfələr bəxş edir. Sumqayıt Dövlət Universiteti artıq respublikanın nüfuzlu ali təhsil ocaqlarındandır. Sumqayıt Dövlət Dram Teatrının ölkədə teatr sənətinin inkişafında özünəməxsus xidmətləri vardır. Sumqayıtda Azərbaycan Milli Elmlər Akademiyasının Polimer Materialları İnstitutu, "Azərikimya" İstehsalat Birliyinin Dövlət Layihə İnstitutu və Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin "Neftqazavtomat" Elm İstehsalat Müəssisəsi fəaliyyət göstərir.

## CƏNUBİ QAFQAZDA ƏN BÖYÜK SƏNAYE PARKI

Bu günlərdə, oktyabrın 23-də Azərbaycan Prezidenti İlham Əliyevin Sumqayıta səfəri çərçivəsində dövlət başçısı Sumqayıt Kimya Sənaye Parkında yeni istehsal müəssisələrinin açılış və təməlqoyma mərasimlərində iştirak edib. Sumqayıt Kimya Sənaye Parkı Azərbaycan Prezidentinin 2011-ci il 21 dekabr tarixli Fərmanı ilə yaradılıb. Bu, Azərbaycanda yaradılmış ilk, Cənubi Qafqazda isə ən böyük sənaye parkıdır. Hazırda ərazisi 583,5 hektar təşkil edən sənaye parkında neft-kimya və digər prioritet sənaye sahələri üzrə rəqabətqabiliyyətli məhsulların istehsalı və emalı müəssisələri fəaliyyət göstərir. Parkda ümumi investisiyaların həcmi təqribən 5,8 milyard manata yaxın olan 38 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye parkına rezidentlər tərəfindən 5,4 milyard manatdan çox investisiya yatırılıb. Qeydiyyata alınmış 38 rezidentdən artıq 20-si fəaliyyət göstərir. Bu gün "Azərbaycan Vanhong Ceramics Co." MMC, "Novus Plastica" MMC və "UPI - Universal Packing Industry" QSC-nin açılışı ilə Sumqayıt Kimya Sənaye Parkında fəaliyyət göstərən müəssisələrin sayı 23-ə çatır. İndiyədək Sumqayıt Kimya Sənaye Parkının rezidentləri tərəfindən ümumilikdə 9,5 milyard manatlıq məhsul satışı həyata keçirilib ki, onun da 3,3 milyard manatdan çox hissəsi - təqribən 35 faizi ixracın payına düşür. Sənaye parkında 2023-cü ilin 9 ayında 2,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun da 674,4 milyon manatlıq hissəsi ixrac olunub. Parkda istehsal olunan məhsullar Türkiyə, Rusiya, Ukrayna, Belarus, Çin, Tayvan, Bolqarıstan, Rumıniya, Polşa, Niderland, İtaliya, Makedoniya, Litva, Avstriya, Estoniya, Danimarka, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Tacikistan, Gürcüstan, Qırğızıstan, Braziliya, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Livan, İraq, Yaponiya, Amerika Birləşmiş Ştatları, Kanada və digər ölkələrə ixrac olunub.

Prezident İlham Əliyev əvvəlcə parkda "Çinar-Servis" İstehsal-kommersiya firmasının Texniki qazların istehsalı müəssisəsinin təməlqoyma mərasimində iştirak edib. "Çinar-Servis" 2022-ci ilin mayında Sumqayıt Kimya Sənaye Parkının rezidenti kimi qeydiyyatdan keçib. Şirkət sənaye parkının 2 hektara yaxın ərazisində sıxılmış azot, oksigen, arqon və maye helium qaz məhsullarının istehsalı ilə məşğul olacaq. İnvestisiya həcmi 13,3 milyon manat olan layihə çərçivəsində 70 nəfərin daimi işlə təmin edilməsi nəzərdə tutulur. İstehsal olunan məhsulların daxili bazarda satılması ilə yanaşı, xarici ölkələrə də ixracı planlaşdırılır. "Çinar-Servis" tərəfindən istehsal olunan sənaye qazları ölkəmizdə bu məhsullara tələbatı ödəməklə yanaşı, Gürcüstana, Türkiyəyə, Rusiyaya da ixrac ediləcək. Sumqayıt Kimya Sənaye Parkının rezidentlərindən biri də "Novus Plastica" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Prezident İlham Əliyev "Novus Plastica" MMC-nin Polimer qabqıları istehsalı müəssisəsinin açılışını edib. "Novus Plastica" MMC-yə 2020-ci ilin avqustunda Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilib. İtaliyanın qabaqcıl texnologiyalarının tətbiqi ilə istehsal olunan məhsulların daxili bazarda satışı ilə yanaşı, Türkiyəyə, MDB ölkələrinə ixracı da planlaşdırılır. İnvestisiya kapitalı 12,1 milyon manatdan çox olan müəssisədə 50-dək insan daimi işlə təmin ediləcək.

## "İŞ YERLƏRİNİN YARADILMASI PROQRAMIMIZA DA NÖVBƏTİ TÖHFƏDİR"

Daha sonra Prezident İlham Əliyev "Universal Qablaşdırma Sənaye" Qapalı Səhmdar Cəmiyyətinin Qablaşdırma məhsulları istehsalı müəssisəsinin açılışını edib. Sənaye parkının bir hektar ərazisində inşa edilmiş müəssisədə qablaşdırmada istifadə olunan qofro karton, fayl və digər məhsullar istehsal ediləcək. İtaliya və Çin texnologiyalarının tətbiq edildiyi müəssisədə 20 çeşiddə məhsul istehsal olunacaq. Ümumi investisiya dəyəri 4,8 milyon manat olan müəssisədə ilkin mərhələdə 50 nəfər daimi işlə təmin ediləcək. Növbəti mərhələdə isə işçilərin sayının 65 nəfərə çatdırılması nəzərdə tutulur. Daha sonra "Azərbaycan Vanhong Ceramics Co." MMC-nin Keramik plitələr istehsalı müəssisəsinin açılışı olub. Sənaye parkının 20 hektardan çox ərazisində Çinin qabaqcıl texnologiyalarının tətbiqi ilə yüksək keyfiyyətli, müxtəlif ölçülərdə keramik plitələrin istehsalı həyata keçiriləcək. Yüz faiz Çin kapitallı müəssisə üçün investisiya dəyəri 40 milyon ABŞ dolları, işçi sayı 400 nəfər nəzərdə tutulsa da, hazırda müəssisəyə 50 milyon ABŞ dolları məbləğində investisiya yatırılıb və 484 nəfər işlə təmin olunub. Cənab Prezident bildirib ki, "İş yerlərinin yaradılması proqramımıza da növbəti töhfədir. Əlbəttə ki, belə müəssisələr Çin-Azərbaycan dostluğunu daha da gücləndirir. Bu zavod cəmi bir il yarıma inşa edildi. Yəni, ilyarım bundan əvvəl mən onun təməlini qoymuşam." İllik istehsal gücü 18 milyon kvadratmetr olan müəssisənin məhsulları daxili bazarda satılmaqla yanaşı, region və MDB ölkələrinə ixrac olunacaq.

Sumqayıtda "Kartaş Kimya" MMC-nin Tikinti kimyəvilərinin istehsalı müəssisəsinin təməlinin qoyulması da istehsal olunan məhsulların daxili bazara satılmaqla yanaşı, Türkiyə və MDB ölkələrinə ixrac ediləcək.

## MÜASİR İDMAN KOMPLEKSLƏRİ

Azərbaycan Prezidenti İlham Əliyevin Sumqayıta səfəri çərçivəsində oktyabrın 23-də Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunda yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. Dövlətimizin başçısına stadionda görülən işlər barədə məlumat verilib. Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionunun yenidən qurulmasına Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 21 noyabr tarixli Sərəncamına əsasən 2020-ci ildə başlanılıb. Tamaşaçı tutumu 9502 nəfər olan stadionun ərazisi 6,8 hektardır. İyirmi iki sektordan ibarət stadionda 545 nəfərlik VİP və KİV tribunası da yaradılıb, ərazi abadlaşdırılıb, yaşıllıq zonaları salınıb. Bildirildi ki, tikilialtı sahədə cüdo, boks və karate zalları fəaliyyət göstərəcək. Burada, eyni zamanda, 2 trenajor otağı, 40 nəfərlik konfrans zalı, inzibati otaqlar, jurnalistlər, hakim, həkim, şərhçilər, məşqçilər üçün otaqlar və digər texniki-köməkçi otaqlar var.

Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində olduğu kimi, idmanın inkişafına yönəlmiş qərarların qəbulu, tədbirlərin reallaşması idman sahəsində ölkəmizin yüksək beynəlxalq nüfuz qazanmasına səbəb olub. İdmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, idmançıların peşəkar səviyyədə hazırlanmasına göstərilən qayğı öz müsbət nəticəsini verib. Müxtəlif idman növləri - güləş, futbol, intellektual oyunlar, şahmat və s. növlərdə Azərbaycan Avropanın və dünyanın diqqətindən kənarda qalmayıb. İdmana ayrılan diqətin nümunəsidir ki, mötəbər idman yarışları, tədbirlər ölkəmizdə davamlı olaraq təşkil olunub. Əlbəttə ki, müasir dövrümüzdə idman sahəsində gerçəkləşdirilən dövlət siyasəti, Olimpiya ideallarının təbliği, müasir Olimpiya kompleksləri və digər tədbirlər nəticəsində, ölkəmiz mötəbər beynəlxalq idman yarışlarının keçirildiyi məkana çevrilməklə yanaşı, idmançılarımız mötəbər yarışların qalibi olub. Son illərdə Bakıda və bütövlükdə, Azərbaycanda idman infrastrukturunun yaradılması istiqamətində böyük işlər görülüb. Bakı Olimpiya Stadionu, Tofiq Bəhramov adına Respublika Stadionu, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, "Baku Crystall Hall", Bakı Tennis Akademiyası, Heydər Əliyev adına İdman Arenası, "Bakcell Arena", Bakı Atıcılıq Mərkəzi, Bakı Ekspo Mərkəzi və digər idman kompleksləri müxtəlif növ yarışların keçirilməsinə imkan verir. İndi, nəinki paytaxt Bakıda, demək olar ki, ölkəmizin bütün bölgələrində müasir Olimpiya idman kompleksləri fəaliyyət göstərir.

Özünün yeni inkişaf dövrünü yaşayan Sumqayıtın sosial-iqtisadi mənzərəsi və elmi-mədəni həyatı Azərbaycanın müasir nailiyyətlərini özündə dolğun təcəssüm etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İşgüzar əlaqələrdə əlverişli platforma

## Prezident İlham Əliyev: "Ulu Öndərin böyük coşqu ilə sevdiyi Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən canlanır"

Bakıda növbəti 3-cü Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" ? "Rebuild Karabakh" Sərgisi işə başlayıb. "Ötən illərin təcrübəsi göstərir ki, belə sərgilərin təşkili işğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi həyatın bərpası, regional sülh və davamlı inkişaf məqsədinin reallaşması baxımından faydalı olmuşdur. Şübhəsiz ki, bugünkü Sərgi də gələcək biznes layihələrinin gerçəkləşdirilməsi üçün mühüm fürsətlər yaradacaqdır." Bu fikirlər Prezident İlham Əliyevin Bakıda keçirilən 3-cü Azərbaycan Beynəlxalq "Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı" ? "Rebuild Karabakh" Sərgisinin iştirakçılarına müraciətində yer alıb. Sərginin xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin keçirildiyi dövrə təsadüf etməsinin vurğulandığı müraciətdə Ulu Öndərin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dövlətimizin ərazi bütövlüyünün təmin edilməsində və müstəqil inkişafında misilsiz xidmətləri olduğu diqqətə çəkilib: "Ümummilli Lider Heydər Əliyev suveren Azərbaycanı Qarabağsız və onun tacı olan Şuşasız təsəvvür etmirdi. Ulu Öndər həmin ərazilərin iqtisadi-mədəni inkişafı və həyat səviyyəsinin davamlı yaxşılaşması naminə xüsusi səy göstərmişdir. Ulu Öndərin böyük coşqu ilə sevdiyi Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən canlanır. Şəhərlər, kəndlər, qəsəbələr abadlaşdıqca, bu torpaqların əzəli sahibləri sülh şəraitində əbədi yaşamaq üçün doğma yurdlarına qayıdırlar".




imzalanan Anlaşma Memorandumuna əsasən həm təşkil olunduğu ilk ildə, həm də 2022-ci ildə sərgi sahəsinin satışından əldə olunan gəlirin bir qismini işğaldan azad olunan ərazilərin bərpası və yenidən qurulması istiqamətində görülən işlərə dəstək olmaq məqsədilə, Qarabağ Dirçəliş Fonduna ianə edib. Hazırda bu istiqamətdə Qarabağ Dirçəliş Fondu ilə əməkdaşlıq davam etdirilir və 2023-cü ildə də hər bir sərgi iştirakçısı tərəfindən Qarabağ Dirçəliş Fonduna ianə məqsədilə vəsait köçürüləcəkdir.

### "TORPAQLARIN ƏZƏLİ SAHİBLƏRİ SÜLH ŞƏRAİTİNDƏ ƏBƏDİ YAŞAMAQ ÜÇÜN DOĞMA YURDLARINA QAYIDIRLAR"





### QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARININ İNKİŞAFINA YÖNƏLDİLƏN İNVESTİSİYALARIN ÜMUMİ HƏCMİ 1,76 MİLYARD MANAT TƏŞKİL EDİB

Qeyd edək ki, Rebuild Karabakh ilk dəfə ənənəvi Xəzər İnşaat Həftəsinin bir hissəsi olaraq 20-22 oktyabr 2021-ci il tarixlərində Bakı Ekspo Mərkəzində keçirilmişdir. Üç gün ərzində Xəzər İnşaat Həftəsinə gələn ziyarətçilər dünyanın 17 ölkəsindən 279 şirkətin məhsulları ilə tanış olmuşdular. İnşaat Həftəsində dünyanın 17 ölkəsindən 300-dən çox şirkət iştirak edirdi. Hazırda işğaldan azad edilmiş ərazilərdə Qarabağın, xüsusilə Şuşa şəhərinin tarixi simasını bərpa etmək məqsədilə genişmiqyaslı yenidənqurma və bərpa işləri aparılır. 2022-ci ilin birinci yarısında əsas kapitala -binaların, infrastrukturun, sənaye obyektlərinin tikintisi və Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişafına yönəldilən investisiyaların ümumi həcmi 1,76 milyard manat təşkil edib. Təqdim olunan innovativ məhsullar, xidmətlər və həllərin müxtəlifliyi Qarabağda birgə layihələrin həyata keçirilməsi üçün müxtəlif sənaye sahələrinin nümayəndələri arasında yeni müqavilələr bağlamaq imkanı yaradır. Xəzər İnşaat Həftəsi




çərçivəsində 3-cü Azərbaycan Beynəlxalq Qarabağın Bərpa, Yenidənqurma və İnkişafı "Rebuild Karabakh", 28-ci Azərbaycan Beynəlxalq İnşaat "BakuBuild" və 15-ci Yubiley Beynəlxalq İstilik, Havalandırma, Kondisionerləşdirilmə, Su təchizatı, Santexnika və Üzgüçülük Hovuzu "Aquatherm Baku" sərgiləri təşkil edir. Bu tədbirlərlə eyni tarixdə 11-ci Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat "Road&Traffic" sərgisi baş tutub.

İnşaat Həftəsində iştirakçılar arasında ümumilikdə Azərbaycan, Almaniya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Cənubi Koreya, Çexiya, Çin, Finlandiya, Fransa, İran, İspaniya, İtaliya, Hindistan, Qazaxıstan, Litva, Macarıstan, Niderland, Özbəkistan, Rusiya Federasiyası, Sloveniya, Türkiyədən ümumilikdə 390-dən çox şirkət yer alıb. Sərgilərdə Almaniya, Birləşmiş Ərəb Əmirlikləri, Çexiya, Macarıstan, Özbəkistan və Rusiya Federasiyası milli və regional stendlərlə təmsil olunur.

### SƏRGİNİN SATIŞINDAN ƏLDƏ OLUNAN GƏLİRİN BİR QİSMİ QARABAĞ DİRÇƏLİŞ FONDUNA İANƏ EDİLİR

Qeyd etmək lazımdır ki, ölkəmizdə keçirilən bir sıra beynəlxalq sərgi və konqreslərin təşkilatçıları olan "Caspian Event Organisers" və "Iteca Caspian" şirkətləri "Rebuild Karabakh 2021" sərgisi çərçivəsində

"Rebuild Karabakh" sərgisi ekologiya, energetika, informasiya texnologiyaları, inşaat, inşaat materialları, kənd təsərrüfatı, mədənçilik, nəqliyyat, təhlükəsizlik, yol tikintisi və infrastrukturu və bir sıra digər sektorlar üzrə təşkil edilib.

Bakı Ekspo Mərkəzində Şuşaya həsr olunmuş, şəhərin tarixini və mədəni dəyərlərini əks etdirən informativ stend, "Qarabağ - xalçaçılıq diyarı" guşəsində isə milli ornamentlərlə zəngin Qarabağ xalçaları nümayiş olunur.

Xəzər İnşaat Həftəsinin işgüzar proqramı çərçivəsində Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə "Böyük Qayıdış"a dair tədbirlər planı üzrə panel müzakirələri, ikitərəfli biznes görüşləri (B2B) və digər tədbirlərin keçirilməsi planlaşdırılır.

"Ulu Öndərin böyük coşqu ilə sevdiyi Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən canlanır. Şəhərlər, kəndlər, qəsəbələr abadlaşdıqca, bu torpaqların əzəli sahibləri sülh şəraitində əbədi yaşamaq üçün doğma yurdlarına qayıdırlar. Həmin ərazilərdə uğurla icra edilən quruculuq-bərpa və reinteqrasiya işləri dövlət və özəl sektor arasında faydalı əməkdaşlıq və inkişaf nümunəsinə çevrilir. Əminəm ki, "Rebuild Karabakh" Sərgisi Qarabağda və Şərqi Zəngəzurda faydalı təşəbbüslərin uğurla gerçəkləşməsi və yeni işgüzar əlaqələr qurulması baxımından əlverişli platforma olacaqdır", - Prezident müraciətində bildirib.

***Zümrüd BAYRAMOVA***

# Azərbaycan demokratik dövlət quruculuğu yolu ilə inamla addımlayır

Ötən əsrin 90-cı illərinin əvvəlində Azərbaycanda ictimai-siyasi şərait son dərəcə gərgin idi. Mövcud hakimiyyətin milli maraqlara zidd, yarıtmaz, uğursuz siyasəti ölkəmizi uçuruma sürükləyirdi. Getdikcə gərginləşən ictimai-siyasi vəziyyət öz bərabərində iqtisadi tənəzzülə aparırdı. Respublikamız istər regional, istərsə də beynəlxalq səviyyədə geosiyasi təcrid vəziyyətində idi. Ölkəmizin daxilində baş verən siyasi ziddiyyətlərlə yanaşı, vətəndaş qarşıdurması Azərbaycanı yenicə



*Tural Qasımlı*
*YAP Şamaxı rayon təşkilatının sədri*

qazanılmış müstəqillik yolundan çıxararaq təhlükəli, xilası mümkün olmayan boşluq girdabına yuvarlayırdı. Ermənistanın ölkəmizə təcavüzünün böyük miqyas alması, torpaqlarımızın işğal coğrafiyasının genişlənməsi müstəqillik kimi əvəzsiz nemətin itirilməsinə addım-addım, bəlkə də daha sürətlə yaxınlaşdırırdı.

Xalqımızın belə ağır günündə yalnız qətiyyətli, təcrübəli siyasi liderə ehtiyac vardı. Xalqı qarşılaşdığı bu təhlükəli vəziyyətdən yalnız onun uğurlu strateji kursu, milli həmrəyliyi təmin etmək kimi çətin bir vəzifəni həyata keçirməyə qadir olan fenomenal dövlətçilik bacarığı çıxara bilərdi. İnsanlarımız ümidini yalnız bir şəxsiyyətə- bütün həyatını, ictimai-siyasi fəaliyyətini öz xalqının xoşbəxtliyinə bağlamış və bu yolda tarixin çox ağır sınaqlarından keçmiş, bu imtahanlardan hər zaman qalib çıxmış Heydər Əliyevə bağlamışdı.

1992-ci il oktyabrın 16-da bir qrup Azərbaycan ziyalısı müdrik dövlət xadimi, zəngin dövlətçilik təcrübəsinə malik olan, öz fəaliyyətində xalqın ali mənafeyini, dövlətin milli maraqlarını rəhbər tutan görkəmli siyasətçi Heydər Əliyevə müraciət etdi. 91 nəfər ziyalının imzaladığı müraciətdə "Dövlət quruculuğundakı çoxillik təcrübənizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütlələrini özündə birləşdirə biləcək böyük, güclü, nüfuzlu və işlək partiya yarada bilərsiniz. Öz adımızdan və on minlərlə respublika vətəndaşı adından Sizdən xahiş edirik ki, təşəkkül tapan yeni yaradılacaq partiyaya rəhbərlik etməyə razılıq verəsiniz. Azərbaycan Sizin sözünüzü və qəti qərarınızı gözləyir - deyə vurğulanmışdı. Ümummilli Lider Heydər Əliyev isə ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq vermişdi. "Güman edirəm ki, müstəqil Azərbaycan dövlətinin gələcək həyatının və fəaliyyətinin əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində Sizin müraciətinizdə göstərilən Yeni Azərbaycan Partiyasının yaradılması obyektiv zərurətdən doğur. Belə partiya Azərbaycanın siyasi-ictimai həyatında fəal iştirak edərək yeni, müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsində və inkişafında tarixi rol oynaya bilər",- deyə Ulu Öndər diqqətə çatdırmışdı. Bu, Ümummilli Lider Heydər Əliyevin növbəti dəfə xalqın və dövlətin gələcəyi, dövlətçiliyimizin xilası naminə siyasi məsuliyyəti öz üzərinə götürməsi, yüksək vətənpərvərlik və milli təəssübkeşliyinin ən bariz nümunələrindən biri idi. Beləliklə, ölkəmizin ağır zamanında Heydər Əliyev xilaskarlıq missiyasını öz üzərinə götürdü. Bu, xalqımızın taleyində dönüş nöqtəsi oldu. Güclü lider ətrafında yaradılan Yeni Azərbaycan Partiyası qısa müddət ərzində xalqı öz ətrafında sıx birləşdirməyi bacardı, dövlətçiliyimizi məhv olmaqdan xilas etdi və siyasi səhnədə yüksəlişə nail oldu.

Ulu Öndərin yüksək nüfuzu, xalqın ona böyük inamı, etimadı və davamlı dəstəyi Yeni Azərbaycan Partiyasının ardıcıl uğurlar qazanmasını təmin edən əsas amil oldu. Partiya ölkəmizin həyatında keyfiyyətcə və mahiyyətcə tamamilə yeni mərhələnin başlanmasını, yeni Azərbaycan quruculuğunun həyata keçirilməsini təmin etdi.

Ümumxalq partiyasına çevrilən Yeni Azərbaycan Partiyası ölkəmizin siyasi, iqtisadi, ictimai və demokratik inkişafı istiqamətində öz üzərinə düşən vəzifələri layiqincə yerinə yetirmiş, çox mühüm tarixi təşəbbüslərə və müvəffəqiyyətlərə imza atmışdır. Bu gün cəmiyyətin bütün təbəqələrindən olan fəal, intellektual və vətənpərvər vətəndaşları özündə birləşdirən partiya bütün seçkilərdə möhtəşəm qələbə qazanması bu reallığın göstəricisidir.

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev: "Bu gün Azərbaycanda bizim partiyamıza rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Yeni Azərbaycan Partiyası, sözün əsl mənasında, ümumxalq partiyasına çevrilibdir. Cəmiyyətimizin bütün təbəqələri partiyamızda birləşib".

Bu gün YAP-ın sıralarında gənclər böyük üstünlük təşkil edir və partiya sıralarına yeni qoşulanların mütləq əksəriyyəti gənclərdən ibarətdir. Yeni Azərbaycan Partiyası hər zaman fəaliyyətində gənclərə geniş imkanların yaradılmasına, onlarda milli şüurun, vətənpərvərlik ruhunun inkişafına xüsusi diqqət yetirib. Partiya tarixi ənənələrə, müasir çağırışlara və mütərəqqi dəyərlərə əsaslanan fəaliyyəti ilə milli həmrəyliyin ideoloji əsası olan azərbaycançılıq məfkurəsinin geniş təbliğinə və mənimsənilməsinə, dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsinə mühüm töhfələr verir.

Yenilikçi və fəal qüvvə olan, daim irəliyə baxan və perspektivi düşünən təbəqəninsağlam düşüncəli gənclərin vahid seçiminin Yeni Azərbaycan Partiyası olması da təsadüfi deyil. Çünki vətəndaşların ali mənafeyini qoruyan, gənclərin xalqa və dövlətə faydalı ideyalarını dəstəkləyən YAP Azərbaycanın dünəni, bugünü olduğu kimi, aydın sabahı və parlaq perspektivi olduğunu da öz əməli fəaliyyəti ilə sübuta yetirib. Azərbaycanın davamlı, dayanıqlı və dinamik inkişafına ardıcıl töhfələr verməyi başlıca strateji vəzifə və fəaliyyət istiqaməti kimi müəyyənləşdirən YAP, həmçinin ölkənin inzibati-coğrafi sərhədlərindən kənarda səmərəli əlaqələr formalaşdırmaqla, davamlı inkişaf etdirməklə öz missiyasını yerinə yetirir. Şübhəsiz ki, Azərbaycanın və regionun ən güclü siyasi partiyalarından olan YAP-ın beynəlxalq münasibətlərinin yüksələn xətt üzrə inkişaf etməsi, ikitərəfli və çoxtərəfli əməkdaşlığın coğrafiyasının genişlənməsi, keyfiyyətcə zənginləşməsi siyasi önəm daşımaqla ölkəmizin xarici əlaqələrinin daha da möhkəmlənməsinə əhəmiyyətli və vacib töhfədir. Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələrində dost və qardaş Türkiyənin, MDB üzvü olan ölkələrin, Avropa və Asiyanın aparıcı siyasi partiyaları və qurumları ilə münasibətlər mühüm yer tutur. Bu münasibətlər çərçivəsində partiyalar arasında intensiv təmaslar davam etdirilir, səmərəli, faydalı müzakirələr, fikir və təcrübə mübadilələri aparılır. Ötən illər ərzində ölkəmiz böyük inkişaf yolu keçib, güclü dövlətə çevrilib, beynəlxalq müstəvidə mövqeləri əhəmiyyətli dərəcədə möhkəmlənib. 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi, sözsüz ki, xalqımızın tarixində ən şərəfli səhifələrdən biri oldu. Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu 30 ildən çox işğalda qalan torpaqlarımızı mənfur düşməndən azad etdi. Beləliklə Cənab Prezident İlham Əliyev, Ümummilli liderimiz Heydər Əliyevin vəsiyyətini yerinə yetirmiş oldu. Müharibədə qəhrəman Azərbaycan gəncləri ön cəbhədə mətanətlə döyüşdülər. Arxa cəbhədə olan gənclərimiz isə sosial şəbəkələrdə və digər sahələrdə informasiya müharibəsində fəal iştirak edərək böyük qələbəyə öz töhfələrini verdilər. Onların sıralarında çox sayda YAP üzvü də vardı.

Böyük Zəfərdən sonra Azərbaycanın qarşısında yeni çağırışlar meydana çıxıb. Yeni dövrün reallıqlarına uyğun olaraq siyasi inkişafa xidmət edən islahatların aparılması, sosial-iqtisadi yüksəlişin davamlılığının təmin olunması, milli həmrəyliyin, Azərbaycanın beynəlxalq arenada və qlobal informasiya müstəvisində mövqeyinin daha da gücləndirilməsi, Böyük qayıdışın yüksək səviyyədə həyata keçirilməsi, tarixi Qələbənin nəticələrinin möhkəmləndirilməsi və digər milli maraqlara xidmət edən məqsədlər strateji prioritetlər kimi müəyyənləşdirilib. Hakim və alternativsiz siyasi qüvvə olan Yeni Azərbaycan Partiyası bu istiqamətdə üzərinə düşən mühüm vəzifə və məsuliyyəti əzmkarlıqla doğruldur.

# Paşinyan antiterror əmri verdi?

*Ermənistan yeni olaylar fonunda...*

ANALİTİK



Ermənistanda Nikol Paşinyanla Qarabağdan qaçmış separatçılar arasında nifaq dərinləşir. Şanlı Silahlı Qüvvələrimizin sentyabrda keçirdikləri lokal antiterror tədbirlərindən sonra İrəvana qaçan bəzi separatçıların Paşinyan iqtidarını devirmək üçün planları ifşa olunduqdan sonra baş nazir daha sərt tədbirlər görmək üçün tapşırıq verib. Artıq bu barədə erməni mediası da müxtəlif dairələrdən informasiyalar əldə ediblər. Belə ki, Paşinyanın ötən həftənin cümə günü qapalı toplantı keçirdiyi haqda məlumat yayılıb. Xüsusilə,"Joxovurd" ("Xalq") qəzeti qapalı toplantıda nələrin müzakirə edildiyinə dair məlumatlar əldə edib.

## "Joxovurd": "Paşinyan komanda yoldaşlarına deyib ki, ruslar onu hakimiyyətdən salmaq istəyir"

Beləliklə, adıçəkilən nəşr yazır ki, əsas müzakirə mövzusu Rusiyanın Ermənistanda hakimiyyəti dəyişmək planları olub və bu tapşırıq separatçılara bilavasitə Kremlin müəyyən dairələrindən verilib. Qəzet yazır: "Paşinyan komanda yoldaşlarına deyib ki, ruslar onu hakimiyyətdən salmaq istəyir, buna görə də iqtidarı qorumaq üçün lazım olan ən sərt addımlar atılmalıdır. Qərar verilib ki, Qarabağdan Ermənistana qayıdan erməni əhalisinin etiraz aksiyaları davamlı şəkildə təşkil olunmalı və əsas günah keçmiş "artsax" "rəhbərləri"nin üzərinə qoyulmalıdır".

Hətta vəziyyət o qədər gərginləşib ki, separatçılar paşinyaçılar arasında terrorçu olaraq qiymətləndirilirlər. Məhz bu baxımdan, Ermənistan hakimiyyəti də quldurlara qarşı mübarizə adı altında bu istiqamətdə təbliğat kampaniyası aparmalıdır. "Paşinyan xüsusi təyinatlıları vasitəsi ilə antiterror tədbirləri keçirməyi qətiləşdirib", - deyə "Joxovurd" əlavə edib və onu da qeyd edib ki, yaxın günlərdə ölkə yeni çalxalanmalar yaşayacaq. Qəzet onu da yazır ki, Paşinyan hakimiyyətinin əsas hədəfi keçmiş "artsax" "rəhbərliyinin" gözdən salınmasıdır: "Qərara alınıb ki, onların ictimai-siyasi nüfuzu məhv edilməlidir. Hazırda bütün narazılıqların oxları Şahramanyana tərəf yönləndirilir. Buna paralel olaraq, anti-Rusiya təbliğatının genişləndirilməsi ilə bağlı qərar verilib".

## Erməni deputat: "Erməni siyasi, iqtisadi və intellektual düşüncəsi üçün 30 il boşuna keçdi"

Ermənistan parlamentinin deputatı Qurgen Arsenyan hadisələr fonunda maraqlı açıqlaması ilə yadda qalıb. "Mən sülh haqqında danışmışam, bundan sonra da danışacam, çünki sülh bizim ən böyük sərvətimizdir. Sülh olarsa, Ermənistan cəmiyyəti yalnız bizim üçün faydalı olan həyat tərzinə keçə bilər", - deyən erməni deputatı bildirib ki, bu baxımdan, revanşçılıq və separatçılıq meylləri mütləq aradan qaldırılmalıdır, sülhə doğru gedilməlidir: "Baş nazir Avropa parlamentində çıxışı zamanı Avropa ictimaiyyətinə bildirdi ki, siz artıq Ermənistan ərazisində hər iki tərəf üçün qarşılıqlı faydalı fəaliyyətləri həyata keçirə bilərsiniz. Məsələn, boru kəmərləri, magistral yollar, yüksək gərginlikli elektrik xətləri və sair.

Bizim əsas məqsədimiz regional ölkələr və qonşularla, o cümlədən, Avropa Birliyi, İran, Rusiya, Türkiyə, Gürcüstan və Azərbaycanla fəal iqtisadi əməkdaşlıq etməkdir. Bu o deməkdir ki, biz 30 illik blokada rejimindən açıq, dinc, qarşılıqlı faydalı əməkdaşlıq rejiminə keçirik, bu hazırlığımızı bütün dünyaya bildiririk".

Arsenyanın sözlərinə görə, 30 illik Ermənistan-Azərbaycan müharibəsi başa çatıb, amma həlli tələb olunan bəzi problemlər var və həmin problemlər də aradan qaldırılacaq. Beləliklə, Ermənistanın vəziyyəti göz önündədir və çox yaxınlarda yeni olayların yaşanacağı da istisna olunmur.

*Afət Tahirqızı*

# Azərbaycanda elə bir yer var ki, ölünü belə dirildir



Müalicəvi Azərbaycan nefti olan Naftalan nefti haqqında ilk məlumat XII əsrə təsadüf edir. Dahi Azərbaycan şairi Nizami Gəncəvi "Xəmsə" poemasında Səfilkürd kəndindən karvanlarla Naftalan neftinin daşınmasından bəhs edirdi. O poemada qayğıkeş qadının ovda yaralanmış ərinin yarasını dağ yağı ilə müalicə etməyə çalışırdı. XIII əsrdə Azərbaycanda olmuş məşhur səyyah Marko Polo da özünün "Böyük Tatarıstan haqqında traktat"ında da Naftalan nefti haqqında yazır.

## Benzindən əlini üzüb maz hazırlayan alman

Naftalan neftinin sənaye üsulu ilə kəşfi, hasilatı və emalı tarixi XIX əsrə aid edilir. 1868-ci ildə Qafqazın dağlıq hissəsinin idarəçiliyi tərəfindən alman milliyyətinə mənsub 8 nəfərə Naftalan yağının yerləşdiyi ərazidə 80 desyatin torpaq sahəsi ayrılır. Həmin almanlar arasında xüsusi fəallığı ilə seçilən dağ mühəndisi Yegel hasil etdiyi məhsulun tərkibində benzin fraksiyalarının olmadığını görərək əvvəlcə məyus olur.

Amma sonradan Naftalan neftinin müalicəvi xüsusiyyətlərindən xəbər tutur və maz istehsalı üçün Naftalanda kiçik bir zavod qurur. Çox keçmədən Yegel bu sahədə böyük uğur qazanır. O, istehsal etdiyi mazın nümunələrinə dünyanın ən tanınmış həkimlərinə göndərir, alman həkim Liss bu maza böyük diqqət göstərərək bütün məhsulu Almaniya üçün alır.



Naftalan nefti dünyada yeganə neft olub öz müalicəvi əhəmiyyətinə görə əfsanəvi xarakter daşımaqla yanaşı, fiziki-kimyəvi xassəsinə görə başqa neftlərdən fərqlənir. Bu neft üçün əsas xarakter yüksək xüsusi çəkiyə malik olması, tərkibində yüngül fraksiyanın və bərk parafin karbohidrogenlərin olmamasıdır. Tərkibində kifayət miqdarda qətran olması su ilə möhkəm emulsiya əmələ gətirməsi Naftalan neftini başqa neftlərdən fərqləndirir. Müalicəvi xassəsinə görə dünyada yeganə neft olan Naftalan nefti Azərbaycan Respublikasında Gəncə şəhərindən 50 km aralı Murov dağ silsiləsinin ətəyində yerləşir.

## Naftalan nefti hər dərdə davadır

Müalicəvi xassələrə malik olan Naftalan nefti sümük - oynaq, dəri, qadın xəstəliklərindən və uroloji xəstəliklər, əsəb, ginekoloji, uroloji və dəri xəstəliklərinin, eləcə də qara ciyər xəstəliklərinin, oynaqların və dayaq hərəkət aparatına aid olan oynaqdan kənar yumşaq toxumaların müalicəsi üçün müstəsna vasitə kimi bütün dünyada məşhurdur.

Naftalan nefti yerdən çıxarkən 90% su və 10% naftalan neftindən ibarət olur. Bu neft ilə müalicə edərkən isə su 10% naftalan 90% olur. Naftalanla birlikdə yerdən çıxan su çox zəngin tərkiblidir, tərkibində yod və bromdan başqa həm də naftalanın tərkibində olan çoxsaylı mikroelementlər olduğundan bir çox xəstəliklərin müalicəsində uğurla tətbiq olunur.







Naftalan nefti-qəhvəyi qonur rəngli, xüsusi aromatik qoxuya malik, yüksək özlülüyə və xüsusi çəkiyə malik mayedir. Naftalan neftinin xüsusi çəkisi 0,92 - 0,96, qaynama temperaturu 220 0C, donma temperaturu -20 0C-dir, su ilə qarışdırıldıqda davamlı emulsiya əmələ gətirir. Naftalan mürəkkəb fiziki - kimyəvi tərkibə malik olub, qətranlı, az kükürdlü, parafinsiz neft məhsuludur və tərkibində sənaye neftlərindən fərqli olaraq benzin, kerosin, liqroin kimi yüngül fraksiyalar yoxdur.

## Naftalan nefti çəlik muzeyi yaratdı

Naftalan neftinin müalicə amili güclü iltihabələyhinə, ağrıkəsici, damargenəldici, allergiyaəleyhinə, hormonabənzər, maddələr mübadiləsini tənzimləyici təsirə malikdir, ovogenez və ovulyasiya proseslərini və spermatogenezi sürətləndirir. Naftalan neftinin bu xüsusiyyətləri mərkəzdə 70 - dən artıq xəstəliyi müalicə etməyə imkan yaradır. Naftalan neftinin tərkibi naften karbohidrogrnləri - 50-55%, aromatik karbohidrogenlər - 10-15%, qətranlı maddələr - 14-15%, naften turşuları - 0,5-3%, kükürdlü birləşmələr - 0,3- 0,7%, azotlu birləşmələr - 0,3%, mikroelementlər (Y, Br , Cu , Mn , Zn , Li, B və s.) dən ibarətdir.

Sovet dövründə müalicə üçün 15 ölkədən insanlar bura axışırdı. Naftalanda məşhur çəliklər müzeyi var idi. Çəliklə axsaya-axsaya bura müalicə almağa gələnlər gedəndə öz çəliklərini o muzeyə bağışlayıb sağlam gedirdilər. İl ərzində 75 min insan müalicəyə gəlirdi, hamısı sağalıb gedirdi. Dünyanın elə bir kurort məkanı yoxdur ki, orada 92 faiz yaxşılaşma əldə edilsin. Amma bu bir həqiqətdir ki, Naftalana gələn hər 100 nəfərdən 92-si sağalıb gedirdi.

## Sürünərək gəlib qaçaraq gedənlər...

Naftalan neftinin möcüzəsini sınayan Hikmət Vəliyev deyir ki, dünyada analoqu olmayan bu təbii dərman haqqında əvvəldən məlumatlı olsa da, onu özünə tətbiq etmək barədə gec qərara gəlib: "Mənim 76 yaşım var, lap uşaq yaşımdan Naftalan nefti haqqında atamız, babamız danışdıqca öyrənmişik, amma müalicəyə 50 yaşıma qədər getməmişdim, sonra həkimlər dedi ki, get Naftalan nefti qəbul et. Ayaqlarımdakı ağrıları bu neft ilə apardılar. Sürünə-sürünə getdiyim yerdən öz ayaqlarımla qayıtdım. İndi də hər il gedirəm, 50 yaşımda əsa ilə gəzirdim, amma indi bu yaşımda əlimə əsa almıram".

Naftalan nefti ilə müalicə alan rusiyalı Anastasiya Filipova isə onu "allah möcüzəsi" adlandırdı: "Cəmi 36 yaşım olmasına baxmayaraq irsi oynaq xəstəliyindən əziyyət çəkirdim, iki il xəstəxanalarda yatdım, amma xeyri olmadı, əsa ilə güclə gəzirdim. Sağ olsun yaxşı insanlar, Naftalan haqqında danışdılar, o vaxta qədər istifadə etmədiyim təbii üsul qalmamışdı. İki ay idi ki, tərpənə bilmirdim, ora əsa ilə gəlmişdim, cəmi 3 vannadan sonra yeriməyə başladım. Ağladım, çünki sağalmağa ümidim artdı. İndi yaxşıyam, yeriyirəm. Bu möcüzəli yer haqqında hamıya, bütün dostlarıma danışıram. Deyirəm ki, Azərbaycanda elə bir yer var ki, ölünü belə dirildir. Bura Tanrı möcüzəsidir".

## Naftalan nefti prezident qanunundan sonra dirçəldi

1992 - 2003-cü illər Naftalan sanatoriya kurort birliyinin 5 sanatoriyasında Ermənistandan gələn qaçqınların və Qarabağ köçkünlərinin yerləşdirilməsi kurortun işini demək olar ki, iflic halına salmışdı. Şəhərin cəbhə xəttinə yaxın yerləşməsi düşmən təbliğatı ilə birlikdə müalicəyə gələn xəstələrin sayının, 10 dəfələrlə azalmasına səbəb oldu.

Lakin sonralar problemlər tədricən həll edildi, ölkə prezidentinin "Regionların iqtisadi inkişafı haqqında" fərmanı, "Kurortlar haqqında" qanunun qəbulu, "Kurortların inkişaf proqramı"nın qəbulu Naftalan kurortunun keyfiyyətcə yeni bir istiqamətdə - özəl sektorun inkişafını təmin edəcək bir istiqamətdə yenidən qurulmasına səbəb oldu. İndi Naftalan nefti ilə müalicəyə gələnlər yüksək xidmətlə rastlaşırlar. Qonaqlar üçün müayinə və müalicə kabinetləri, yeməkxana, idman zalı, namaz otağı, kompyuter otağı, kişi və qadın salonu kimi xidmət sahələri fəaliyyət göstərir. Yeməkxanalarda gündə 3 dəfə xəstələrə Azərbaycan və Avropa mətbəxinin yeməkləri təqdim olunur.

## Naftalan neftindən möcüzə yaradan rəssam

Gürcüstan və Azərbaycan Rəssamlıq İttifaqının üzvü, rəssam Sabir Çopuroğlu rəssamlıq sənətinə gətirdiyi maraqlı ideya ilə tanınır. Haqqında bir çox ölkə mətbuatında "neft ilə möcüzə yaradan rəssam" təqdimatı ilə yazılar yayımlanıb. Rəssam əsərlərini əlləri və dırnaqları ilə çəkir.

O Naftalan nefti haqqında eşidəndən sonra onu fərqli bir istiqamət üzrə yoxlamaq niyyətinə gəlir. O Naftalana gedir və bir neçə litr neft götürərək qayıdır: "Naftalan neftini əllərimə götürüb rəsmlərimi onunla çəkirəm. Mənə böyük rahatlıq və enerji verir. Bu neftin dünyada analoqu olmadığı kimi, bu neftlə yaradılan rəsm əsərlərinin də analoqu yoxdur. Fəxr edirəm ki, bu möcüzə ilə rəsm yarada bildim".

**_Lalə Mehralı_**

# Erməni vandalizminə məruz qalan tarixi abidələrimiz



**Ermənilər Azərbaycan xalqının tarix və mədəniyyətinə dair fakt və həqiqətləri saxtalaşdırmaqla bərabər, abidələrin görünüşünü və yazılarını da süni şəkildə "erməniləşdirmişlər". Məkrli niyyət və mənfur siyasət sahibi olan ermənilərin azərbaycanlılara qarşı törətdikləri vandalizm hərəkətləri hər zaman pislənilib. Tarix ədaləti bərpa edir. Hər zaman belə olub, bu gün də belə olacaq.**



Ermənilər bütün dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə ərazi iddiaları ilə məhdudlaşdırmayıb, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikiblər, onları oğurlayıb özününküləşdirməyə çalışıblar. İşğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq xalqımızın milli mənəvi dəyərləri təhqir edilmişdir. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Dədəli, Merdinli, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sırada vurğulanmalıdır. Qaraağac qəbiristanlığında yerləşmiş yerli əhəmiyyətli memarlıq abidəsi olan Uğurlu bəyin türbəsi də daxil olmaqla XIX əsrə aid 4 türbə tamamilə məhv edilmişdir. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.

Ermənistanın mədəniyyət obyektlərinə, dini-mədəni irsimizə qarşı bu cür vandalizm aktları bir çox beynəlxalq sənədlərə, o cümlədən 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"nın, "Arxeoloji irsin qorunması haqqında" Avropa Konvensiyasının, "Ümumdünya mədəni və təbii irsinin mühafizəsi haqqında Konvensiya"nın müddəalarını kobud şəkildə pozmuşdur.

## "XALQIMIZA MƏXSUS MİNLƏRLƏ TARİXİ-MƏDƏNİ ABİDƏ VƏ YAŞAYIŞ MƏSKƏNİ DAĞIDILIB VİRAN EDİLMİŞDİR"

Bütün qeyd olunan bu və digər abidələrimizlə yanaşı, Ermənistan ərazisində məhv edilən Azərbaycan abidələrini də qeyd etməliyik. Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığınının bariz nümunəsidir. 1988-ci ildə Zəngəzurda, Göyçədə, Dərələyəzdə, İrəvanda, Vedidə yaşayan azərbaycanlılar dədə-baba yurdlarından qovulmağa başladılar. Kütləvi terrora məruz qalan azərbaycanlılar məcburiyyət qarşısında qalıb öz dədə-baba yurdlarını tərk etdilər. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırım siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

## ƏHALİSİ SOYQIRIM VƏ DEPORTASİYALARA MƏRUZ QALMIŞ QƏDİM ZƏNGƏZUR

Qərbi Azərbaycan ölkəmizin tarixinə görə ən qədim bölgələrdən biridir. Burada mövcud olan qəbiristanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. Böyük bir irsin nümunələri bu yerlərdədir. Əhalisi soyqırım və deportasiyalara məruz qalmış tarixi Azərbaycan ərazilərindən biri də qədim Zəngəzur torpağıdır.

1915-ci ildə Zəngəzur və İrəvan quberniyasının ərazisində 382 şiə məscidi, 9 sünni məscidi fəaliyyət göstərib. İrəvan quberniyasında məscidlərin artma dinamikası 1904-cü ildə 201, 1911-ci ildə 342, 1915-ci ildə 382 şəklində olub. Bu artım dinamikası bölgədə müsəlman əhalisinin sürətlə artmasından və bu ərazidə müsəlman ruhanilərinin güclü mövqeyindən xəbər verir. Məscidin filialları Zəngəzurun Şəki, Vaqudi, Mərdhuz, Qarraq, Saldaş, Karkyal, Ağbəs, Ağbağ, Hacıəmi, Ballıqaya, Karkas, Çaralı, Xardcmaqlı, Dəstəkərd, Qalacıq, Mollalar, Təzə Kilsə, Nərcan və digər kəndlərində fəaliyyət göstərib. İrəvan şəhərinin özündə XX əsrin əvvəlinə kimi Qədim Şəhər, Çame, Hacı Novruzəlibəy, Hacı İmamverdibəy, Mirzə Səfibəy, Hacı Cəfərbəy məscidləri fəaliyyət göstərib. İrəvanın Came məscidi kompleksində iri mədrəsə binası da mövcud olub. Bu tarixi abidələrin əksəriyyəti ermənilər tərəfindən vəhşicəsinə məhv edilib, yaxud mənşəyi dəyişdirilib.

## URUD QALASINDAN XARABALIQLAR QALIB

Qədim tarixi olan Zəngəzur mahalının Qarakilsə rayonunun Urud kəndi ərazisində yerləşən qədim Azərbaycan - türk tarixi-memarlıq abidələri kompleksi olan Uruda daxil olan Urud qalası Urud kəndi yaxınlığında yerləşən tarixi türk qalasıdır. Xatırladaq ki, 1968-ci ildə ermənilər Urud kəndinin adını dəyişərək Vorotan, Urud qalasının adını isə Vorotanberd qoymuşlar. Urud kəndində 1988-ci ilə kimi yalnız Azərbaycan türkləri yaşamışlar. Bu kənddə ermənilərin ilk məskunlaşması 1988-ci ildən sonra olmuşdur.

Onu da qeyd edək ki, abidələr kompleksinin ən mühüm hissəsi isə Urud kəndi yaxınlığındakı orta əsrlər Azərbaycan məzarlığıdır. Məzarlıqda bədii tərtibatlı məzar daşları, qəbirüstü sənduqələr və qoç heykəlləri olmuşdur. Qəbiristanda 13 sənduqə, 4 qoç heykəlli məzar daş qeydə alınmışdı. Məzarlıq ermənilər tərəfindən dağıdılıb, Urud qalasının yalnız xarabalıqları qalır.

***Nəzakət Ələddinqızı***





# Şəhid Ruslan Cəfərovun məzarı ziyarət olunub

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci il sentyabr ayında başlanan və 44 gün davam edən Vətən müharibəmiz 30 ilə yaxın erməni işğalında olan torpaqlarımızın, Qarabağımızın azadlığı ilə nəticələndi. 44 günlük müqəddəs savaş dövlətimizin və xalqımızın iftixar ünvanına çevrildi. Azərbaycan, sadəcə, torpaqlarımızın işğaldan azad olunması ilə kifayətlənmədi, eyni zamanda Azərbaycan xalqı öz varlığını, milli məsələlərdəki həmrəyliyini, xalqımızın parlaq gələcəyini bütün dünyaya nümayiş etdirdi. Çox böyük qürur hissi keçiririk ki, əzəli, qədim Azərbaycan torpaqlarına, Qarabağımıza qayıtdıq. Xalqımız və dövlətimiz qəhrəman övladlarının şücaətini daim yüksək qiymətləndirir, şəhidlərimizin ruhuna ehtiramla yanaşır, xatirəsini uca tutur. Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının sədri Azər Süleymanov, rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, aparatının məsul əməkdaşları, SHXÇDX-nin Nəsimi rayon idarəsinin nümayəndələri, Şəhid ailələri, Vətən müharibəsi qaziləri və rayon ictimaiyyətinin nümayəndələrinin iştirakı ilə Vətən müharibəsi zamanı torpaqlarmızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olmuş Cəfərov Ruslan Gündüz oğlunun şəhadət günündə əziz xatirəsi dərin hörmət və ehtiramla yad olundu, məzarı üzərinə gül-çiçək dəstələri düzüldü. Şəhidin xatirəsinə ehsan süfrəsi açılıb. Şəhidin ailə üzvləri göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirdilər.

# Trol Tofiq Yaqublu peşəsini dəyişməyə hazırlaşır



Azərbaycanın dünya miqyasında yeri və rolu möhkəmləndikcə daxili və xarici maraqlı qüvvələrin məkrli şər və böhtanları geniş və əhatəli xarakter daşıyır. Dağıdıcı müxalif partiya funksionerləri müxtəlif təxribat, qarayaxma üsulları ilə xalqı çaşdırmağa çalışırlar. Hətta 44 günlük Vətən müharibəsində qazanılan parlaq qələbəyə erməni maraqları prizmasından yanaşma nümayiş etdirməklə erməni lobbisi ilə həmfikir olduqlarını nümayiş etdirirlər. Şər və böhtan vasitəsindən geninə-boluna yararlanmağa çalışan bu ünsürlər bəzən qazilərimizin gözdən qaçan, həlli uzanan məişət problemlərini qabardaraq ondan öz məqsədləri üçün istifadə etməkdən də çəkinmirlər. Ancaq əminliklə söyləmək olar ki, müxalif məxluqların tutduqları bu əməlləri fiaskoya uğrayacaq. Onlar yenə də gülünc vəziyyətlə üzləşməli olacaqlar. Xalq-iqtidar birliyinin möhkəm əsaslara malik olması onların arzularını, məkrli planlarını alt-üst edəcək.

## Tofiq Yaqublu təxribatçı çağırışlar edir

Azərbaycan demokratik, hüquqi dövlətdir. Qəbul edilən qanunlar, həyata keçən qərarlar yalnız və yalnız demokratik prinsiplərə söykənir. Kimsə deyə bilməz ki, filankəs qanunsuz olaraq həbs edilib və yaxud təzyiqlərə, təhdidlərə məruz qalıb. Dağıdıcı müxalifət isə ölkəmizdəki mövcud duruma zidd fəaliyyət yolu tutur, hər məqamda şər və böhtanlar səsləndirməklə cəmiyyətdə müəyyən çaşqınlıq yaratmağa çalışır. Boşboğazlığı ilə seçilən və tanınan Milli Şuranın üzvü Tofiq Yaqublu iddia edir ki, ADR sədri Qubad İbadoğlu qanunsuz olaraq həbs edilib. Hətta T.Yaqublu bir qədər də dərinə gedərək məram və məqsədlərini anlamayan insanları aksiyalara dəvət edir, piketlər keçirməklə şəhərdə gərginlik yaratmağa çağırır: "ADR İdarə Heyəti təşkilatın sədri, professor Qubad İbadoğlunun qanunsuz həbsinə etiraz və azad edilməsi məqsədilə 31 oktyabrda DİN, 3 noyabrda isə respublikanın Baş Prokurorluğu qarşısında etiraz piketi keçirməklə bağlı qərar qəbul edib. Məsələ ilə bağlı bu gün BŞİH-nə müvafiq məktubla müraciət edilib. Qubad İbadoğluna, Hüseyn Məlikə və digər siyasi məhbuslara azadlıq tələb edirik".

Yuxarıda qeyd etdiyim kimi, Azərbaycan hüquqi dövlətdir, heç bir halda heç kim, o cümlədən Q.İbadoğlu qanunsuz olaraq istintaqa cəlb edilə bilməz, necə ki, edilmir. Artıq istintaq orqanları Q.İbadoğlunun cinayətini sübuta yetirib. Mətbuat üçün açıqlamada bu məsələyə geniş izahat verilib. Bu baxımdan T.Yaqublunun hay-küyü, sadəcə, mənasız boşboğazlıqdan başqa bir deyil. İnsanları aksiyalara çağırması isə T.Yaqublunun təxribatçı əməllərinin bir hissəsidir. Hesab edirəm ki, məhz bunu əsas götürməklə hüquq-mühafizə orqanları T.Yaqubluya qarşı hüquqi tədbirlər görməlidir.

## Dağıdıcı müxalifətin xəyanəti uzun müddət davam etməyəcək

Mütəmadi olaraq AXCP sədri Əli Kərimli, Milli Şuranın rəhbəri Cəmil Həsənli, Sevinc Osmanqızı, Şura üzvü Tofiq Yaqublu və digərləri Azərbaycan xaqına və hakimiyyətinə qarşı xaricdən verilən tezislər əsasında əsassız ittihamlar səsləndirirlər. Dəfələrlə sual ünvanlanıb və bu gün də eyni sualı ünvanlayıram, xalqın inam və etimad yeri olan Azərbaycan hakimiyyətini şərləməklə nəyə nail olacağınızı düşünürsünüz? Dərk etmirsiniz ki, xalq Azərbaycan hakimiyyətinin düşünülmüş, uğurlu addımını görür və birmənalı şəkildə daxili və xarici siyasətini dəstəkləyir? Bütün hallarda erməni lobbisinin sifarişlərini yerinə yetirməklə respublikamızda təxribat törətmək, qarşıdurma yaratmaq cəhdlərinə nail ola bilməyəcəksiniz. Əminliklə demək olar ki, günün birində satqın və xəyanətkar əməllərinizə görə cavab verəcəksiniz. Çünki dövlətçiliyə qarşı xəyanət əməlləriniz uzun müddət davam edə bilməz.

## Əli Kərimlinin əsas məqsədi xarici yardımlar əldə etməkdir

Görünən ondan ibarətdir ki, müxalifətin dağıdıcı qanadının təmsilçiləri əsas fəaiyyətləri maddi durumlarını yaxşılaşdırmaqdır. Siyasətdə gərəksiz və lazımsız əşya kimi dəyərləndirildiklərini anlayırlar. Yəni, bunun fərqindədirlər. Bu baxımdan, bütün güclərini və imkanlarını qrantlar əldə etməyə səfərbər ediblər. Bununla bağlı çoxsaylı faktlar, sübutlar göstərmək olar. Təkcə bir faktı qeyd etmək lazımdır ki, AXCP sədri Ə.Kərimli Avropanın maraqlı dairələri tərəfindən qrantlar əldə etmiş və maliyyə vəsaitlərini Gürcüstan vasitəsi ilə Azərbaycan gətizdirmişdir. Qara işlərlə məşğul olan bir neçə şəxsin, o cümlədən, AXCP fəallarından ibarət olan dəstə üzvlərinin məhkəməsində AXCP-nin üzvü Vidadi Rüstəmli və partiyanın nəzarət-təftiş komissiyasının üzvü Təzəxan Mirələmli Heydər Əhmədovdan, Ceyhun Hüseynovdan, Rauf İsgəndərovdan, Elturan Rüstəmlidən və başqalarından müxtəlif vaxtlarda Rusiyadan göndərilmiş, ümumilikdə 87 min dollar pulu Əli Kərimlinin şəxsi tələbatlarının qarşılanması üçün ona vermişlər. Bir sözlə, Ə.Kərimlinin gördüyü və etdiyi hüquqa zidd fəaliyyətinin əsas xətti qrant qazanmaqdı. Lakin məhkəmə prosesində açıqlandığı kimi Ə.Kərimli ifşa edilir. Sadəcə, özü bataqlığın içində idi, sadəlövh insanları da özünə yoldaş etməklə onların həyatlarını alt-üst edir. Yəqin ki, bu cür siyasi fəaliyyət uzun çəkməyəcək. Bir gün Ə.Kərimli özü etdiyi pisliklərin cəzasını yaşamalı olacaq. Eləcə də, digər trollar da cəzadan kənarda qala bilməyəcəklər. Necə ki, xalqın maraqlarına qarşı çıxanlar indi təcridxanada oturub məhkəmələrin çıxaracağı qərarları gözləyirlər.

***İ.ƏLİYEV***

# Azərbaycana gələn əcnəbilərin sayı 32 faiz artıb



Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən 2023-cü ilin yanvar-sentyabr aylarında Azərbaycan Respublikasına dünyanın 184 ölkəsindən 1535,8 min və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 32,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.Dövlət Statistika Komitəsindən SİA-ya verilən məlumata görə, gələnlərin 31,0 faizi Rusiya Federasiyası, 17,8 faizi Türkiyə, 7,5 faizi İran, 5,0 faizi Hindistan, 4,8 faizi Gürcüstan, 4,3 faizi Səudiyyə Ərəbistanı, 2,7 faizi Qazaxıstan, 2,5 faizi Pakistan, 2,0 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,8 faizi Özbəkistan, 1,7 faizi İsrail, hər birindən 1,5 faiz olmaqla Küveyt və Ukrayna, 1,4 faizi Belarus, 1,2 faizi Türkmənistan, hər birindən 1,1 faiz olmaqla Çin və Böyük Britaniya, 11,1 faizi digər ölkələrin vətəndaşları olub. Gələnlərin 69,7 faizini kişilər, 30,3 faizini qadınlar təşkil edib.Ötən ilin eyni dövrü ilə müqayisədə Çindən gələnlərin sayı 8,2 dəfə, Cənubi Koreyadan - 3,4 dəfə, Türkmənistandan - 2,9 dəfə, Hindistandan - 2,1 dəfə, Polşadan - 2,0 dəfə, Qazaxıstandan - 1,9 dəfə, Tacikistandan - 1,9 dəfə, Misirdən - 1,8 dəfə, Filippindən - 1,8 dəfə, Qırğızıstandan - 1,8 dəfə, Bəhreyndən - 1,6 dəfə, Belarusdan - 1,6 dəfə, Moldovadan - 1,6 dəfə, Özbəkistandan - 1,6 dəfə, İspaniyadan - 1,6 dəfə, İtaliyadan - 1,6 dəfə, Rusiya Federasiyasından - 1,5 dəfə, ABŞ-dan - 41,4 faiz, Kanadadan - 41,1 faiz, İsraildən - 34,6 faiz, Gürcüstandan - 31,7 faiz, Niderlanddan - 30,2 faiz, Böyük Britaniyadan - 26,3 faiz, Küveytdən - 24,0 faiz, Fransadan - 23,2 faiz, Almaniyadan - 20,6 faiz, Türkiyədən - 20,0 faiz, Birləşmiş Ərəb Əmirliklərindən - 11,6 faiz, Ukraynadan - 8,6 faiz artıb.2022-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə MDB ölkələrindən gələnlərin sayı 1,6 dəfə artaraq 619,2 min nəfər, Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 39,5 faiz artaraq 77,8 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 9,3 faiz azalaraq 257,1 min nəfər olmuşdur.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 72,2 faizi hava, 26,5 faizi dəmir yolu və avtomobil, 1,3 faizi isə dəniz nəqliyyatından istifadə edib.2022-ci ilin yanvar-sentyabr ayları ilə müqayisədə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının ümumi sayı 24,7 faiz artaraq 1384,8 min nəfər olub. Rusiya Federasiyasına gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı 49,5 faiz, Gürcüstana gedənlərin sayı 31,7 faiz, Türkiyəyə gedənlərin sayı 17,5 faiz artıb, İrana gedənlərin sayı 17,0 faiz azalmışdır. Ölkə vətəndaşlarının 44,6 faizi Türkiyəyə, 21,2 faizi Rusiya Federasiyasına, 9,0 faizi Gürcüstana, 7,4 faizi İrana, 17,8 faizi digər ölkələrə səfər edib. Gedənlərin 65,0 faizini kişilər, 35,0 faizini qadınlar təşkil edib.2023-cü ilin yanvar-sentyabr aylarında xarici ölkələrə səfər edən Azərbaycan Respublikası vətəndaşlarının 68,6 faizi hava, 28,9 faizi dəmir yolu və avtomobil, 2,5 faizi isə dəniz nəqliyyatından istifadə edib.




# "Qarabağ cənnət məkana və alınmaz qalaya çevrilir"

"Otuz il həsrətində olduğumuz arzuya çatdıq. Azərbaycan 44 günlük müharibə və 2023-cü ilin sentyabrın 19-20-si ilə öz tarixində ilk dəfə olaraq bütövləşdi, suverenliyini təmin etdi. Yəni, 1923-cü ilin iyulunda Azərbaycan torpağında Sovet Rusiyasının təkidi ilə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı, 2023-cü ilin sentyabrında isə bu tarixdən silindi". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Anar İsgəndərov deyib.

Deputat bildirib ki, bu qələbə Azərbaycan xalqının, dövlətinin böyük bir uğurudur: "Təbii ki, Azərbaycan xalqının qarşısında duran ən mühüm məsələlərdən biri cənab Prezidentin də dediyi kimi Qarabağın cənnətə çevrilməsidir. Bu istiqamətdə də hazırda ciddi işlər görülür. Xüsusilə də otuz il ərzində öz torpaqlarını səbrsizliklə gözləyən soydaşlarımız artıq öz torpaqlarına köçürlər.

Bu mənda Azərbaycan dövləti bir daha dünyaya bəyan edir ki, erməni işğalçı idi. Əgər onlar işğalçı olmasaydılar bu torpaqları viranə qoymazdılar. Azərbaycan isə öz tarixi torpağının sahibidir ki, həmin torpaqları cənnətə çevirir.

Dünya bu gün də ermənilər üçün göz yaşı tökür, onların tərəfini saxlayır. Amma bunların hər biri bizim üçün arxada qaldı. Bu gün minlərlə, on minlərlə azərbaycanlı öz doğma el-obasına geri qayıdır. Eyni zamanda aparılan yenidənqurma və bərpa işləri nəticəsində Qarabağ cənnət məkana və alınmaz qalaya çevrilir".

***Səbinə Hüseynli***

# Rusiyalı ekspert:
# "Fransanın Ermənistana silah verməsi böyük geosiyasi oyunun elementidir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb*

Xəbər verdiyimiz kimi, oktyabrın 23-də Ermənistan Müdafiə Nazirliyinin rəhbəri və Fransanın Silahlı Qüvvələr naziri Suren Papikyan və Sebastyan Lekornu Parisdə "ikitərəfli əməkdaşlığa dair sənədlər" imzalayıblar. Lekornu danışıqlardan sonra keçirilən mətbuat konfransında bildirib ki, tərəflər "Thales"dən Ermənistana üç GM200 radarının tədarükünə dair müqavilə imzalayıblar. "Mistral" tipli sistemlərlə bağlı Avropa raket istehsalçısı MBDA ilə də niyyət məktubu imzalanacaq. Lekornu əlavə edib ki, Fransa Ermənistan hərbçilərinə hava hücumundan müdafiə sahəsində də təlim keçəcək. Onun sözlərinə görə, Ermənistan nümayəndə heyətinin Fransa Hərbi Hava Qüvvələri Məktəbinə səfəri də nəzərdə tutulub. Bundan əlavə, nazir qeyd edib ki, Paris İrəvana hava hücumundan müdafiə auditində kömək edəcək. Eyni zamanda, İrəvanda kifayət qədər ziddiyyətli məntiq səsləndi ki, Fransa silahlarını əldə etməkdə məqsəd guya "özümüzü müdafiə etmək və Azərbaycanın ambisiyalarını dayandırmaqdır, çünki son məqsəd qonşumuzla sülh şəraitində yaşamaqdır".













Rusiyalı hərbi ekspert, Milli Müdafiə jurnalının baş redaktoru İqor Korotçenko "Moskva-Baku" portalına müsahibəsində vəziyyəti şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- İqor Yuryeviç, görünür Fransa Ermənistana silah-sursat verməyə başlamaq niyyətindədir və sənəd artıq Parisdə imzalanıb...***

- Bu razılaşma tamamilə anti-Rusiya və anti-Aərbaycan xarakteri daşıyır və Nikol Paşinyanın Moskva ilə münasibətlərin məhdudlaşdırılması və tədricən kəsilməsi, KTMT-dən çıxması və Qərbin təhlükəsizlik çətirinin himayəsi altında gizlənmək siyasətinin trendindədir".

Parisin əsas strateji tərəfdaş kimi seçilməsi artıq İrəvanın siyasətinin əsas istiqamətidir. Ermənistan rəhbərliyi Fransaya təkcə İrəvana siyasi dəstək verən ölkə kimi deyil, həm də respublikanın hərbi potensialının gücləndirilməsinə mühüm töhfə verəcək tərəfdaş kimi ümid edir.

İrəvan artıq açıq şəkildə bəyan edib ki, Fransada Rusiyanın əvəzinə təhlükəsizlik tərəfdaşı tapıb. Görünən odur ki, Ermənistan və Fransa müdafiə nazirləri arasında silah tədarükü ilə bağlı saziş imzalandıqdan sonra müqavilələr gələcək. Sual budur ki, bu təchizatların pulunu kim və hansı resurslardan ödəyəcək. Xarici hərbi yardım baxımından xəsisliyi ilə tanınan Fransanın öz büdcəsindən böyük silah tədarükü edəcəyini təsəvvür etməkdə çətinlik çəkirəm. Bu o deməkdir ki, Ermənistan öz büdcəsindən vəsait xərcləyəcək, ya da kredit ödəmə sxemi olacaq- Ermənistan hökuməti ya fransızlardan, ya da Avropa strukturlarından kredit götürəcək.

***- İrəvan vaxtaşırı məsələ qaldırır ki, Rusiya Ermənistana 400 milyon dollarlıq silah verməli idi, amma bunu onlara çatdırmayıb. Eyni zamanda məlumat var ki, Rusiya sifarişi hazırlayıb, lakin Ermənistan tərəfi onu daşımayıb...***

- Bu barədə deyə biləcəyim yeganə şey odur ki, hərbi-texniki əməkdaşlıqla bağlı istənilən məsələ məxfi xarakter daşıyır. Əgər Ermənistan tərəfinin hər hansı sualı olarsa, o, hərbi-texniki əməkdaşlıq məsələlərində kommunikasiya kanalları vasitəsilə Rusiya tərəfi ilə məsələləri müzakirə edib, hərtərəfli aydınlıqlar alıb, məsələni həll edə bilərdi.

***- Fransanın Ermənistana tədarük edəcəyi silahlar barədə nə deyə bilərsiniz?***

-Bildiyiniz kimi, bunlar "Thales"-in GM200 radarlarıdır. "Mistral" üçün niyyət məktubu da imzalanacaq. Fransa həmçinin Ermənistan hərbçilərinə hava hücumundan müdafiə üzrə təlim keçəcək və İrəvana hava hücumundan müdafiə auditində kömək edəcək.

Əslində, yalnız şərti olaraq hava hücumundan müdafiə sistemlərinin müdafiə silahları olduğunu güman etmək olar. Məsələn, İrəvan silahlı təxribat törətmək qərarına gəlsə, o zaman bunu müdafiə silahı adlandırmaq çətin ki mümkün olsun. Fransa silah istehsalçısı olaraq ilk üç əsas qlobal təchizatçıdan biridir. Fransanın çox geniş silah çeşidi var. Bu, bütün əsas silah növlərinin Avropa istehsalının müstəqil mərkəzidir. Ancaq sual yaranır: Ermənistan Fransa silahlarını əlində olan Sovet sistemləri ilə necə interqrasiya edəcək? Həmçinin, silahların tədarükü həm də ölkəyə xarici hərbi mütəxəssislərin gəlməsini nəzərdə tutur ki, onlar tədarük edilən hərbi texnikanın əməliyyat və döyüş istifadəsi üzrə erməni hərbçilərinə yerli təlim keçməlidirlər. Yəni, silahlardan sonra Ermənistanda ilkin olaraq ümumi sayı 100 nəfərə qədər olan hərbi məsləhətçilər və mütəxəssislər şəklində təmsil oluna bilən fransız hərbi komponenti peyda olacaq. Gələcəkdə hazırlanmış qarşılıqlı fəaliyyət variantları əsasında lazımi şərait yaranan kimi respublikada Fransanın tammiqyaslı hərbi mövcudluğu yaradıla bilər.

Bundan əlavə, KTMT çərçivəsində birgə hava hücumundan müdafiə sistemi fəaliyyət göstərir. Ermənistan da bu sistemin üzvüdür. Bunlar strukturun üzvü olan ölkələr tərəfindən məlumatların ötürülməsi və emalı üçün vahid standartlar, raketdən müdafiə problemlərinin birgə həlli yollarıdır. Ermənistanın NATO üzvü olan dövlətlə hərbi sahədə əməkdaşlığı hərbi sahədə müttəfiqlik əlaqələrinin kəsilməsini və Ermənistanın KTMT-nin bütün sazişlərindən çıxmasını nəzərdə tutur. Gec-tez bu baş verəcək.

Aydındır ki, "dost"/"düşmən" identifikasiyası sistemi Ermənistan üçün uyğunlaşdırılacaq, çünki Ermənistan Respublikası ilə Rusiya və digər KTMT ölkələri arasında münasibətlərin kəsilməsi Təşkilata üzv dövlətlərin hava obyektlərinin nişanlanması deməkdir. Ermənistan üçün "xarici" olaraq. Bu o deməkdir ki, çox güman ki, yüngül, uyğunlaşdırılmış NATO dövləti identifikasiyası sistemi tətbiq olunacaq.

Ermənistanın NATO silah standartlarına keçəcəyini anlamaq vacibdir. Və bu əsas məqamdır. Bu o deməkdir ki, respublika Rusiya silahlarının istifadəsinə əsaslanan hərbi inkişafın bütün əvvəlki illərindən imtina edəcək.

Bu, Ermənistanın Qərbə üz tutmasının praktiki həyata keçirilməsidir. Bunlar artıq sözlər deyil, real qərarlardır. Və bu, prosesin yalnız başlanğıcıdır. Bu dönüş getdikcə dramatikləşəcək və son nəticədə Rusiya ilə ara kəsiləcək. İndi dünyada hadisələr çox sürətlidir. Hər şey birdən baş verə bilər.

***- Yəni, nə Ermənistan, nə də Fransa başqasının adı altında mütəxəssis göndərməyəcək... Məsələn, Ermənistan-Azərbaycan sərhədində Aİ-nin "monitorinq missiyası"nın eyni əməkdaşları.***

- Müəyyən bir ölkə ilə əməkdaşlıq və başqa standartlarda olan hərbi texnikanın tədarükü, təlimlər bütün prosesin məxfiliyini nəzərdə tutur. Buna görə də o, artıq "sirr" təsnifatını nəzərdə tutur.

Regionda təhlükəsizliyi pozmağa cəhd edilir. Proseslər mənfi xarakter daşıyır. Fransa təkcə Ermənistana hərbi dəstək verməkdə maraqlı deyil, Paris həm də regiona daxil olmaqda, burada hərbi komponentlərini yerləşdirməkdə və hərbi mövcudluğunu genişləndirməkdə maraqlıdır. Ən əsası isə odur ki, baş verənlər böyük geosiyasi oyunun elementidir. Aydın məsələdir ki, Fransa bir tərəfdən Rusiyaya qarşı, digər tərəfdən isə Türkiyə və Azərbaycana qarşı oynayır.

***- Ermənistan prezidenti Vaaqn Xaçaturyan Fransa ilə hərbi yaxınlaşmanı kifayət qədər özünəməxsus şəkildə izah etdi ki, bu yolla İrəvan "Azərbaycanla sülh şəraitində yaşamaq üçün onun ambisiyalarını dayandırmaq" istəyir... Bunun fonunda bəzi Qərb ölkələri Azərbaycanın Ermənistana potensial "hücum"u haqqında dəhşətli hekayəni təbliğ edirlər. Nəyə görə?***

- Ermənistan prezidenti tamamilə nominal fiqurdur. Bu, öz vəzifəsini yerinə yetirən, amma arxasında icra hakimiyyətinin rıçaqları olmayan adamdır.

Azərbaycan beynəlxalq hüquq normalarına riayət edir və Ermənistanın hamılıqla tanınmış ərazisinə qarşı heç bir hərbi əməliyyat planlaşdırmır. Digər məsələ odur ki, Bakı ilə İrəvan arasında sülh müqaviləsi imzalanmayıb və sərhədlər delimitasiyası və demarkasiyası aparılmayıb. Və bu yerə deyil. Azərbaycan artıq İran ərazisindən keçən nəqliyyat dəhlizi layihəsini həyata keçirməyə başlayıb.

Bu gün qlobal geosiyasi qarşıdurma var. Ölkələr və dövlət ittifaqları bir-birinə qarşıdur. Hər kəs öz milli maraqlarını müdafiə edir. Belə qarşıdurmanın elementlərindən biri təkcə hərbi gücün proyeksiyası deyil, həm də informasiya, hibrid və ya koqnitiv müharibə texnologiyalarından istifadədir. Rəqibini şeytanlaşdırmaq, ona ən məkrli plan və niyyətləri aid etmək dövlətlər arasında qarşıdurmanın bir hissəsidir. Azərbaycanın son qələbələri və ərazi bütövlüyünü bərpa etməsi çoxlarının xoşuna gəlmir, çünki regionda moderator kimi çıxış etmək və hansısa yolla "söndürmək" imkanları itib. Buna görə də, rəqibi şeytanlaşdırmaq kimi bir vasitə istifadə olunur. Bu, bugünkü beynəlxalq münasibətlər sistemi üçün, xüsusən də bu gün dünyanın düşdüyü kəskin hərbi-siyasi qarışıqlıq dövründə xarakterikdir.

***- Siyasi komponenti çıxarsaq, Fransanın bu hava hücumundan müdafiə sistemləri genişmiqyaslı münaqişə zamanı Ermənistan ordusu üçün "fərqlilik yarada bilərmi"?***

- Məsələ onda deyil ki, havanı düzəldəcəklər, ya yox. Onu idarə etmək və istifadə etmək qabiliyyətinə malik peşəkar təlim keçmiş döyüş heyətləri olduqda istənilən silah növü ciddi silah sayılır. Nəhayət, hər hansı proqnoz vermək üçün bilmək lazımdır ki, Fransanın Ermənistana tədarük həcmi nə qədər olacaq və müqavilənin ümumi parametrləri nədən ibarətdir. Ermənistan Silahlı Qüvvələrinin döyüş ekipajlarının onlardan istifadə etmək üçün hazırlıq səviyyəsinə baxmaq lazımdır.

Qərbin Ermənistana nə dərəcədə geniş miqyaslı dəstəyi olacağını bilmirik. Ukrayna kimi bunu da dəstəkləsələr, bu bir ssenaridir. Əgər bu, ölçülüb-biçilmiş, tədrici silah təchizatıdırsa, bu fərqlidir. Hər halda, hər bir silah sistemi üçün əks silah var.

Biz ondan çıxış etməliyik ki, bu gün Cənubi Qafqaz regionunda və təkcə bu regionda deyil, Azərbaycanın silahlı qüvvələri ən yaxşılar sırasındadır. Bu gün dünyanın bir sıra regionlarında baş verən silahlı toqquşmalar fonunda Azərbaycan nümunəsi var- o 44 gün ərzində qələbəyə nail olub, düşmənin hərbi təslim şərtləri ilə özlərinə sərfəli sülhə imza atıblar. Və sonra, həlledici hərbi əməliyyatların ikinci mərhələsində siyasi və hərbi qələbəyə nail olublar. Müasir tarix belə presedentlər tanımır.

Ən azı Azərbaycan nümunəsi göstərir ki, Bakının son illərdə apardığı hərbi quruculuq müasir dünyanın ən yaxşı ordularından birinin yaranmasına səbəb olub. Ona görə də Ermənistanın hərbi güclənməsi İrəvana Azərbaycan üzərində keyfiyyətcə üstünlük əldə etməyə imkan verməyəcək. Qərbin Ermənistana hər hansı hərbi yardım göndərməsinə baxmayaraq, bu, heç bir halda baş verməyəcək.

***Tərcümə - Elçin Bayramlı***

SƏS

26 oktyabr
2023-cü il

# "Övlad bizim şəxsi əşya və məhsulumuz deyil"

*MÜNASİBƏT BİLDİRİLDİ*

"Ümumiyyətlə, insan adı onun haqqında yaranan ilkin təəssüratdır. Məsələn, ilk tanışlıq zamanı qarşı tərəfin adını eşidən an "nə gözəl adınız var" kimi ifadələr işlədirik. Bu ifadə artıq yaranacaq ünsiyyətin açarı olur". Bu sözləri SİA-ya açıqlamasında 311 saylı tam orta məktəbin Azərbaycan dili və Ədəbiyyat müəllimi Günel İbrahimova deyib.

Onun sözlərinə görə, övladına ad qoyan hər bir valideyn bu barədə çox və ətraflı düşünərək addım atmalıdır: "Çunki həmin ad uşağın gələcəyini, cəmiyyətin ona münasibətini və onun psixoloji durumunu formalaşdıran ən birinci faktordur. Adın daşıdığı semantika və səslənmə belə insan həyatında böyük rol oynayır. Hər bir ismin lügəvi mənası müəyyən zaman çərçivəsində fərdin xarakterində, əməlində, taleyində öz əksini tapır. Bunu ədəbiyyatımızda "Dədə Qorqud" dastanında ərənlərin göstərdikləri igidliyin müqabilində verilən adlardan da görürük".



Günel İbrahimova sözlərinə belə davam edib: "Biz adını bəyənməyib, ətrafdakıların gülüş hədəfinə çevrilməkdən yorulmuş və tez bir zamanda ismini dəyişən çox insana rast gəlirik. Lakin bu addımı atmaq istəyən və cəsarət etməyən insanlarımız da var. Ona görə də gələcəkdə övladlarımız belə hallarla qarşılaşmasın, daxilində bizə küskün olmasın deyə bu cür addımlardan çəkinmək və ad seçərkən diqqətli davranmaq lazımdır.

Digər bir məqam adın milli xarakter daşımasıdır. Çünki adlar da nəsildən-nəslə ötürülən və tarixi özündə yaşadan bir faktdır. Milli ruhda, xalqına, kökünə və millətinə bağlı bir vətəndaş istəyiriksə, bu məqamı da diqqətdə saxlamalıyıq. Niyə Tomris, Burla Xatun, Bəyim xanım kimi igid, yenilməz, qürurlu xanımlarımızın adlarını daşımaq yerinə "Cana", "Nəmuska" kimi gülünc adlardan istifadə etməliyik?! Övlad bizim şəxsi əşyamız, məhsulumuz deyil. O, cəmiyyətin fərdi və ölkənin vətəndaşı olduğu üçün bunlar nəzərə alınmalıdır".

**Ayşən**

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

## Ronaldo: "Mən rekordlara əhəmiyyət vermirəm"

Portuqaliyalı hücumçu Kriştiano Ronaldo "Əl-Nəsr"dəki (Səudiyyə Ərəbistanı) oyunu haqda danışıb. Qol.az xəbər verir ki, o, klubunun ən yaxşı və ən güclü komandaya çevrilməsi üçün çalışdıqlarını bildirib: "Mən rekordlara çox əhəmiyyət vermirəm. "Əl Nəsr"də vaxtımı keçirirəm. Biz ən güclü və ən yaxşı komanda olmaq üçün çalışırıq".



Xatırladaq ki, ötən gün Asiya Çempionlar Liqasının qrup mərhələsinin 3-cü turunun oyununda "Əl-Nəsr" Qətərin "Əl-Duhail" komandası ilə qarşılaşıb. Səudiyyə Ərəbistanı təmsilçisi 4:3 hesablı çətin qələbə qazanıb. Kriştiano Ronaldo dubla imza atıb, Taliska və Sadio Mane isə hərəyə bir qol vurublar.

# Günlərlə ac qalıb pəhriz saxlamağın zərərləri NƏDİR?

*MÜTƏXƏSSİS AÇIQLADI*

"Müasir dövrdə ən başlıca sağlamlıq problemlərindən biri köklükdür". Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib. Asim Vəliyev sözlərinə belə davam edib: "Əksəriyyət insanlar qidalardan aldığı enerjini sərf edə bilmədiyi üçün artıq çəkinin qurbanına çevrilir. Son dövrlərdə təbii qida istehlakının azalması, yemək yeməyə düzgün vaxt ayrılmaması, fast-food qidalanmanın artması, fiziki aktivliyin azalması kökəlmənin əsas səbəblərindəndir.



Orqanizmdə yağ miqdarının artması bir çox xroniki sağlamlıq problemləri üçün də zəmin hazırlayır. İnsulin direnci, ürək-damar xəstəlikləri, tip2 diabet, yüksək təzyiq, öd kisəsi və qaraciyər xəstəlikləri, böyrək xəstəlikləri və bir çox sağlamlıq problemləri yağlanmanın mənfi nəticələrindəndir. Bu baxımdan da çəki ataraq düzgün arıqlamaq çox insanın arzusudur. Düzgün arıqlamaq nədir? Əgər orqanizm ehtiyac duyduğu zülal, karbohidrat, yağ, vitamin və mineralları lazımi və balanslı şəkildə qəbul edərək , fiziki qurluşda heç bir dəyişiklik etmədən çəki atırsa, bu sağlam arıqlamaqdır.

Hər bir fərdin yaşına, cinsinə, sosial-iqtisadi vəziyyətinə və qidalanma vərdişlərinə görə xüsusi olaraq hazırlanan zəifləmə pəhrizləri ilə yanaşı məşq proqramları ən təsirli arıqlama metodudur. Sürətli arıqlamaq üçün tövsiyə olunan pəhrizlər karbohidratı və zülalı çox pəhrizlər orqanizmin balansını pozur, maddələr mübadiləsini zəiflədir, hətta sağalmaz sağlamlıq problemlərinə də gətirib çıxara bilir. Belə metodlar orqanizmin uzun müddət ac qalmasına, mədə, qaraciyərdə ciddi problemlərə gətirib çıxarır.

Gün ərzində sağlam və düzgün qidalanaraq və 1 saatlıq yürüş, üzgüçülük, pilates, aerobika kimi fiziki aktivliklərlə ideal çəkimizə malik ola bilərik. Mütəmadi idmanla məşğul olmaq gözəl bədən qurluşuna da malik olmağa kömək edər. Beləcə artıq yağlanmadan xilas olaraq yuxarıda sadaladığımız bir çox xəstəliklərdən də qorunmuş olarıq".

**A.Vəli**

## İsveç alimlərindən XƏBƏRDARLIQ: Artıq Marsı da çirkləndiririk...

2022-ci ilin yayında NASA Marsın səthi ilə yavaş-yavaş sürüşən "Perseverance" Mars roverindən inqilabi görüntü yükləyib. Mars roveri insan sivilizasiyasının tərk etdiyi tullantıları qeydə alıb. Stokholm Universitetindən olan tədqiqatçılar xəbərdarlıq edirlər ki, idarə olunan kosmik uçuşlar nəticəsində yaranan hətta kiçik tullantılar belə Marsdakı ətraf mühiti tamamilə dəyişə bilər.



İsveç alimləri digər göy cisimlərinə necə təsir edə biləcəyimizlə bağlı qaydaları sərtləşdirməyə çağırırlar. "Biz, insanlar, artıq Yer kürəsində iqlimin və ətraf mühitin dəyişməsi prosesini yaşayırıq. Bu prosesi dayandırmasaq, biz qeyri-ixtiyari olaraq Marsda da bu cür böyük dəyişikliklərə səbəb ola bilərik. Marsı çirkləndirməyimizə artıq sübutlar var", - deyə "Empa" İsveç elmi-tədqiqat institutunun elmi işçisi Con Xader bildirib. O, Amerika "Pnas" elmi jurnalında dərc edilmiş məqalədə xəbərdarlıq edir ki, bəşəriyyət bunun planet üçün hansı nəticələrə səbəb ola biləcəyini anlamayaraq, bundan sonra da Marsı çirkləndirmək niyyətindədir.

Qırmızı planetə missiyaların sayı, yəqin ki, yaxın onilliklərdə artacaq. Bəzi ölkələr, İlon Maskın "Space X" kimi şirkətləri idarə olunan ekspedisiyalar planlaşdırır. Bu o deməkdir ki, tərk edilmiş materialın miqdarı artır, kimyəvi maddələr isə nəqliyyat vasitələri və yaşayış modullarından axaraq ətraf mühiti çirkləndirə bilər.

## ELAN

Abbasov Füzuli Kamil oğlunun adına verilmiş hərbi bilet və veteran bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000